**EVDƏ QAL, SAĞLAM QAL!**

**Prezidentə yazırlar: "İnsanlarımıza verdiyiniz yüksək dəyərə görə Sizə minnətdarıq!"**



Bax 3

**Milli Məclisin iclasında 17 məsələ müzakirə olunub**



Bax 9




"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 107 (6072) 30 iyun 2020-ci il. Qiymәti 40 qәpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Əli Əhmədov: "130 dövlətin müsbət rəyi Prezident İlham Əliyevin təşəbbüsünə yüksək diqqətin təzahürüdür"



"Dünyada tüğyan edən koronavirus pandemiyasının beynəlxalq əməkdaşlığın miqyas və intensivliyinə mənfi təsir göstərməsi beynəlxalq icmanın həyat ritminin davam etdirilməsi istiqamətində yeni formaların axtarılıb tapmasını obyektiv zərurətə çevirir. Bu mənada Azərbaycanın geniş vüsət almış beynəlxalq təşəbbüslərinin COVİD-19 pandemiyası dövründə daha da artması...

Bax 4

## Adil Əliyev: "Bu günlərdə hər bir vətəndaş öz məsuliyyətini dərk etməlidir"



Koronavirusun ölkəmizdə yayılmağa başladığı ilk gündən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən vaxtında və zəruri tədbirlərin həyata keçirildiyi pandemiyaya qarşı mübarizədə görülən işlərin lazımi səviyyədə idarə olunmasını...

Bax 4

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İçərişəhərin bir hissəsində aparılan bərpa-konservasiya işləri ilə tanış olublar



Bax 2

## Prezident İlham Əliyevin qlobal əməkdaşlıq və həmrəyliyə xidmət edən təşəbbüsləri beynəlxalq səviyyədə böyük rəğbətlə qarşılanır

*İndi dünyanın sosial-iqtisadi və humanitar mənzərəsi olduqca mürəkkəb xarakterə malikdir. Çünki yeni növ koronavirus (COVID-19) infeksiyasının sürətlə yayılaraq...*



Bax 5

## Avropa məzarlıqlarına yer qıtlığı: İkinci dalğa sarsıdıcıdır!

*Artıq dünyada koronavirusa yoluxanların ümumi sayı 10 milyon 244 mini keçib. SİA xəbər verir ki, euronews-ə görə, bu barədə Con Hopkins universiteti qənaətə gəlib. Belə ki, Aİ ölkələri arasında ən baha ödəyici İtaliyadır, orada ölənlərin...*





Bax 13

## Müller Bundesliqanın tarixinə düşdü



"Bavariya"nın hücumçusu Tomas Müller yeni rekorda imza atıb. Qol.az xəbər verir ki, Münhen təmsilçisinin 30 yaşlı futbolçusu bu mövsüm 21 məhsuldar ötürmə edib ki, bu, Bundesliqa...

Bax 16

**Bəhruz Quliyev: "Prezident İlham Əliyev tərəfindən irəli sürülən növbəti çağırışın bəşəriyyətə mühüm töhfələr verəcəyini əminliklə söyləyə bilərik"**



Bax 7

**"Prezidentin təşəbbüsü qlobal liderliyin göstəricisidir"**



Bax 10

**Qənimət Zahidin "Bizim işimiz hökuməti şərləməkdir" etirafına müxalifətdən cavab**



Bax 14

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İçərişəhərin bir hissəsində aparılan bərpa-konservasiya işləri ilə tanış olublar

***İyunun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun bir hissəsində aparılan bərpa-konservasiya işləri ilə tanış olublar. AZƏRTAC xəbər verir ki, birinci xanım Mehriban Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən bərpa-konservasiya işləri Qoşa Qala qapılarını da əhatə edib.***

Dövlətimizin başçısına və birinci xanıma bu qapıların və ona bitişik olan qala divarının bərpası, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunda bu il görülən və gələn il icra olunacaq işlər, Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən "İstedArt" layihəsi barədə məlumat verildi.











Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2016-cı ildə Qoşa Qala qapıları yaxınlığında aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən XVII əsrə aid Yeraltı hamama baxdılar, Bakı Xan Sarayı Kompleksində aparılan bərpa işləri ilə tanış oldular. Burada "Baqqal" suvenir və ənənəvi sənətkarlıq nümunələrinin sergi və satış qalereyası, İçərişəhər Ənənəvi İncəsənət Mərkəzi yaradılıb.





## Rəsmi xronika

Prezident İlham Əliyev "Hərbi qulluqçuların statusu haqqında", "İnzibati icraat haqqında", "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"də və Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 8 may tarixli 91-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının fəaliyyətinin təmin edilməsi haqqında" 2003-cü il 21 fevral tarixli 857 nömrəli, "Elm haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 9 avqust tarixli 1009 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 725 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti haqqında Əsasnamə"də, "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin strukturu"nda, "Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin sisteminə işə götürülən işçilərin ştat sayının həddi"ndə və "Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətində ali hərbi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

Bildirildi ki, Bakı şəhərinin tarixində əhəmiyyətli yeri olan Bakı Xan Sarayı yaxın gələcəkdə əsaslı yenidənqurma, aparılan konservasiya və bərpa işlərindən sonra muzey şəklində ictimaiyyətə təqdim ediləcək. Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdilər.

# Prezidentə yazırlar: "İnsanlarımıza verdiyiniz yüksək dəyərə görə Sizə minnətdarıq!"

***Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq məktubları ünvanlanmaqda davam edir. Respublikamızın bütün guşələrindən vətəndaşlar dövlətimizin başçısının diqqət və qayğısından razılıqlarını ifadə edirlər. SİA Prezidentin saytına istinadla minnətdarlıq məktublarının daha bir neçəsini təqdim edir.***



Bakı şəhərinin Nəsimi rayonundan professor Adilə Abasova yazır: "Əziz və möhtərəm cənab Prezident, mənə göstərdiyiniz son dərəcə böyük diqqətə və qayğıya görə Sizə minnətdarlığımı ifadə etmək üçün söz tapa bilmirəm. Dövlətimizin yüksək mükafatlarından olan 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməyim mənə o qədər böyük bir sevinc bəxş edib ki, özümü dünyanın ən xoşbəxt insanı hiss edirəm. Mənim həyatda amalım həmişə Vətənə xidmət olub. Ötən əsrin 90-cı illərinin əvvəllərində qəlbimin səsini dinləyərək Moskvada elmi fəaliyyətimi, radiasiya problemləri sahəsində araşdırmalar aparan laboratoriya müdiri vəzifəsini tərk edib Azərbaycana dönmüşəm. Ulu öndər Heydər Əliyevin etimadı ilə mənə Azərbaycan Respublikasının Milli Məclisində yüksək vəzifə həvalə edilib. Taleyimdən çox razıyam ki, parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri kimi ölkəmizin qanunvericilik bazasının inkişafında mənim də xidmətlərim olub. Əziz və möhtərəm cənab Prezident, Azərbaycan xalqı xoşbəxtdir ki, Sizin kimi rəhbəri var. Sizin dərin zəkanız, müdrikliyiniz, alicənablığınız xalqımızın həyatını nurlandırır, onu gözəl gələcəyə aparır. Azərbaycanın işıqlı günləri ulu öndər Heydər Əliyevin davamçısı kimi Sizin həyata keçirdiyiniz uzaqgörən siyasətlə bağlıdır. Allah Sizi və ailənizi Azərbaycanımız üçün qorusun!".

Hacıqabul rayonunun Kolanı kəndindən Müşfiq Nağıyev: "Möhtərəm cənab Prezident, bir gənc müəllim olaraq Azərbaycanın bu günü və sabahı üçün gördüyünüz işləri yaxından izləyir və alqışlayıram. Pandemiya ilə mübarizə sahəsində gördüyünüz işlər göz qabağındadır. Əvvəlki illərdə səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi, çoxlu sayda tibb ocaqlarının ərsəyə gətirilməsi, modul tipli xəstəxanaların operativ olaraq inşa edilib istifadəyə verilməsi harayımıza yetdi. Belə olmasaydı, xəstəliyə yoluxan insanları yerləşdirməkdə çətinlik çəkər, görülən tədbirlərin səmərəliliyi azalardı. Sizin uğurlu siyasətiniz sayəsində Azərbaycan nəinki regionun, hətta dünyanın nüfuzlu ölkələrindən birinə çevrilib. Bu gün bir çox ölkələr Azərbaycanı etibarlı tərəfdaş kimi qəbul edir, dünyanın dörd bir yanından insanlar ölkəmizlə yaxından maraqlanırlar. Sizə hər zaman böyük ehtiyacımız var, cənab Prezident!".

Ağcabədi rayonunun Kəbirli kəndindən Fazil Orucov: "Möhtərəm cənab Prezident, iyun ayının 3-də Ağcabədi rayonuna səfəriniz ailəmizin böyük sevinc və iftixarına səbəb oldu. Səfərdən dərhal sonra Ağcabədi rayonunun 14 min əhalinin yaşadığı 4 yaşayış məntəqəsinə yol çəkilməsi və Sarıcalı kəndində 360 yerlik məktəb binasının tikilməsinə dair verdiyiniz sərəncamlar cəbhə bölgəsi və Qarabağ torpağı olan Ağcabədi rayonuna diqqət və qayğınızın təzahürüdür. Cənab Prezident, biz hər zaman Sizi dəstəkləmişik və Sizinlə fəxr etmişik, bundan sonra da belə olacaq. Bizim Sizi dəstəkləməyimizin səbəbi xalqımızın rifahının yaxşılaşdırılması üçün yürütdüyünüz ardıcıl siyasətdir. Bunu yalnız Vətən xainləri görməyə bilərlər. Dünyada tüğyan edən koronavirusla əlaqədar xalqımızın sağlamlığının qorunması üçün verdiyiniz qərarlar biz vətəndaşlara olan sevginizin bariz nümunəsidir. Mən fəxr edirəm ki, Sizin kimi uzaqgörən Prezidentimiz var. Allah Sizi qorusun, Azərbaycan xalqına çox görməsin!".

Füzuli rayonunun Qayıdış-7 qəsəbəsindən şagird Vəliyar Oruclu: "Hörmətli cənab Prezident, mən məcburi köçkün övladı olaraq Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya məcburi köçkünlər üçün yaratdığınız şəraitə görə təşəkkür edirəm. Bu gün dünyanı bürüyən koronavirus pandemiyasının tüğyan etdiyi bir vaxtda Sizin gördüyünüz tədbirlər ölkəmizdə insanların bu virusa az yoluxmasına və ölüm sayının Avropa ölkələrinə nisbətən daha az olmasına gətirib çıxardı. Sizin yüksək idarəetmə bacarığınız nəticəsində bu virusa yoluxmaların sayı aşağı həddə saxlanılmaqdadır. Cənab Prezident, tutduğunuz bu yolda Sizə yeni uğurlar arzulayıram. Tanrı Sizi qorusun!".

Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Yuxarı Əndəmic kəndindən Mütəllim Mütəllimzadə:"Möhtərəm cənab Prezident, dünya ölkələrini təşvişə salan, dövlətləri müflisləşmə həddinə qədər gətirib çıxaran COVID-19 pandemiyasının ölkəmizdə yarada biləcəyi fəsadların qarşısının böyük ölçüdə alınması Sizin uzaqgörənliyinizin, yüksək idarəçilik qabiliyyətinizin, yeritdiyiniz düzgün siyasətin nəticəsidir. Bu sınaq ölkəmizdə xalqın dövlətə olan inamını, güvənini bir daha sübut etdi. Bu hadisələrin baş verdiyi dövrdə xalqımızın rifahı naminə görülən tədbirlər, atılan addımlar xalqımız tərəfindən yüksək qiymətləndirildi. Ümummilli lideri Heydər Əliyev kimi, Siz də Azərbaycan xalqını təhlükəli vəziyyətlərdən qəhrəmancasına xilas edirsiniz. Koronavirusa yoluxmanın aşkar olunduğu ilk vaxtdan etibarən xalqımızın sağlamlığını hər şeydən üstün tutmağınız xalqa verdiyiniz dəyərin təzahürüdür. Eyni zamanda, karantin qaydalarına xalqımızın mütləq əksəriyyətinin əməl etməsi xalqın dövlətə bağlılığının göstəricisidir. Xalqımızın bu çətin sınaqdan xilas olunması üçün gördüyünüz tədbirlərə görə Sizə öz adımdan, ailəmin adından təşəkkür edirəm, cənab Prezident. Əzəli torpaqlarımızın qaytarılması uğrunda apardığınız mübarizədə Sizin siyasətinizi hər zaman dəstəkləyir, dövlətimiz, dövlətçiliyimiz, xalqımız uğrunda hər bir tapşırığa hazır olduğumu bildirirəm".

Tərtər rayonundan Etibar Əhmədov: "Möhtərəm cənab Prezident, Sizin koronavirus pandemiyasının qarşısının alınması üçün atdığınız qabaqlayıcı addımlar tam əminliklə deməyə əsas verir ki, bu baladan az itkilərlə çıxacağıq. Cənab Prezident, bizim sağlamlığımızın qeydinə qaldığınız üçün Sizə minnətdarlığımızı bildiririk. Belə bir çətin vaxtda rayonumuza səfər etdiniz, möhtəşəm Olimpiya İdman Kompleksinin, Dövlət Rəmzləri Muzeyinin, Tərtər Elektrik Yarımstansiyasının, 6 yaşayış məntəqəsini birləşdirən, uzunluğu 21,5 kilometr olan Buruc-Güləbatlı-Xoruzlu-Kəbirli-Bayandurlu-Qaradağlı yolunun açılışlarını etdiniz. Biz tərtərlilər haqqında dediyiniz "Mən aprel döyüşlərindən sonra burada olarkən tərtərlilərin mərdliyini bir daha gördüm. Gördüm ki, onlar öz torpağından heç yerə gedən deyillər. Gördüm ki, bütün təhlükələrə baxmayaraq, öz torpaqlarında möhkəm dayanıblar" sözləri bizim vətəndaş məsuliyyətimizi, vətənpərvərliyimizi daha da artırıb. Cənab Prezident, Tərtər rayonu, onun sakinləri haqqında dediyiniz xoş sözlərə, insanlarımıza verdiyiniz yüksək dəyərə görə Sizə minnətdarıq. Tərtərlilər Sizin apardığınız daxili və xarici siyasəti daim dəstəkləyirlər, Vətənimizə və Sizə sadiqdirlər".

Bakının Suraxanı rayonunun Hövsan qəsəbəsindən Nurəddin Abdullayev: "Hörmətli cənab Prezident, mən 1979-cu ildə hemofiliya xəstəliyi ilə dünyaya gəlmişəm. Bu xəstəlik səbəbindən çox ağrıacılarım olub. Nəticədə 1-ci qrup əlil olmuşam. 2004-cü ildən ailəliyəm, iki övladım var. Bu məktubu Sizə yazmaqda məqsədim dərin minnətdarlıq hissimi bildirməkdir. Mən hər zaman ən çətin anımda dövlətin qayğısını hiss etmişəm. Bunun üçün Sizə və Mehriban xanıma borcluyam. Bu gün istər hemofiliya sahəsində, istərsə də sosial rifahımız üçün imzalanan bir çox sərəncamların bizim həyatımıza təsirini duyuruq. Cənab Prezident, 20 ildən çoxdur ki, reabilitasiya məmulatlarından istifadə edirəm. Hazırkı pandemiya dövründə Protez-Ortopedik Bərpa Mərkəzində zənglərə operativ cavab verilməsi, elektron qaydada sənədlərin qəbulu, ünvanlarda xidmətlərin göstərilməsi, reabilitasiya vasitələrinin yaşayış ünvanlarına gətirilməsi həyata keçirilir. Bu bizə olan diqqət və qayğının təzahürüdür. Bütün bunlar üçün Sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Bu çətin anlarda belə isti münasibət və ən əsası xüsusi diqqət biz əlilləri sevindirir. Çox sağ olun".

# Əli Əhmədov: "130 dövlətin müsbət rəyi Prezident İlham Əliyevin təşəbbüsünə yüksək diqqətin təzahürüdür"



"Dünyada tüğyan edən koronavirus pandemiyasının beynəlxalq əməkdaşlığın miqyas və intensivliyinə mənfi təsir göstərməsi beynəlxalq icmanın həyat ritminin davam etdirilməsi istiqamətində yeni formaların axtarılıb tapmasını obyektiv zərurətə çevirir. Bu mənada Azərbaycanın geniş vüsət almış beynəlxalq təşəbbüslərinin COVİD-19 pandemiyası dövründə daha da artması diqqəti cəlb etməyə bilməz. Çox müxtəlif sahələrdə regional və beynəlxalq təşəbbüslərin müəllifi olan Azərbaycan pandemiya dövründə yeni və müasir formatlarda beynəlxalq təşəbbüskarlığı ilə seçilməkdədir". Bu fikirlər Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədovun "Azərbaycan" qəzetinin saytında dərc olunmuş "Prezident İlham Əliyevin təşəbbüsü və beynəlxalq əməkdaşlığın yeni imkanları" sərlövhəli məqaləsində bildirilib.

Əli Əhmədov məqaləsində qeyd edib: "Cari ilin aprel və may aylarında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə pandemiyaya qarşı mübarizədə regional və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi imkanlarının Türk Şurası və Qoşulmama Hərəkatı çərçivəsində videokonfrans formatında müzakirə edilməsi bütün dünya miqyasında böyük rezonans doğurdu. Azərbaycan Prezidentinin təşəbbüsü əsasında təşkil edilən həmin müzakirələrin COVİD-19 pandemiyasına qarşı mübarizədə beynəlxalq həmrəyliyin və əməkdaşlığın genişləndirilməsinə diqqətin artırılmasında mühüm rol oynaması xüsusilə vurğulanmağa layiqdir. Elə bunun nəticəsidir ki, Qoşulmama Hərəkatına üzv olan dövlətlər tərəfindən Prezident İlham Əliyevin təşəbbüsü yüksək qiymətləndirilmiş və koronavirus pandemiyası ilə mübarizədə qlobal həmrəylik və beynəlxalq əməkdaşlıq imkanlarının müzakirə edilməsinin Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının gündəliyinə çıxarılması məqsədəuyğun hesab edilmişdir. Beləliklə, hazırda Qoşulmama Hərəkatının sədri olan Azərbaycan Prezidentinin təşəbbüsü əsasında BMT Baş Assambleyasının koronavirus pandemiyasına qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsinə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi barədə tarixi qərar qəbul edilmişdir. Qərarın qəbul edilməsinə dünyanın 130 dövləti tərəfindən müsbət rəy bildirilməsi problemin aktuallığı ilə yanaşı Prezident İlham Əliyevin təşəbbüsünə yüksək diqqətin təzahürü hesab edilməlidir.

Azərbaycan Respublikasının Prezidentinin COVİD-19 pandemiyasına qarşı beynəlxalq əməkdaşlığın gücləndirilməsi təşəbbüsü müasir şəraitdə qlobal həmrəyliyin və əməkdaşlığın yeni imkanlarının dəyərləndirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir. Sübut etməyə ehtiyac yoxdur ki, ayrı-ayrı ölkələr arasında fikir ayrılıqlarının dərinləşməsi, qlobal xarakter kəsb edən problemlər ətrafında vahid mövqe formalaşdırmağın çətinləşməsi kimi meyllərin müşahidə olunduğu bir zamanda bütün dünyada ən ciddi təhdidə çevrilən COVİD-19-a qarşı birgə mübarizə qlobal etimadın və əməkdaşlığın möhkəmləndirilməsində unikal fürsətdir. Prezident İlham Əliyevin sözügedən təşəbbüsü irəli sürməkdə məqsədi də məhz dünya dövlətlərini və BMT-ni bu unikal fürsətdən faydalanmağa, hamıya eyni dərəcədə təhlükə olan ümumi bəlaya qarşı səyləri birləşdirməyə səsləməkdən ibarətdir. COVİD-19 kimi amansız virusa qarşı mübarizədə dövlətlərin çoxunun birgə mübarizə əvəzinə özünütəcridə meylli olması, qlobal təşəbbüs göstərilməməsi, dünyanın ən nüfuzlu beynəlxalq təşkilatının problemə yetərincə diqqət yetirə bilməməsi təşəbbüsün aktuallığını və əhəmiyyətini qat-qat artırır.

Azərbaycan Respublikasının Prezidentinin təşəbbüsü ilə BMT Baş Assambleyasının videokonfrans formatında xüsusi sessiyasının çağırılması barədə qərarının qəbul edilməsi ölkəmizin və onun Prezidentinin dünya birliyində hörmət və nüfuzunun bariz ifadəsi sayılmalıdır. Azərbaycanın artan əhəmiyyəti və beynəlxalq iştirakçılığı onu beynəlxalq icmanın ən fəal və çevik iştirakçılarından biri kimi tanıtmışdır. Dəfələrlə Azərbaycan Prezidentinin regional və beynəlxalq əhəmiyyət kəsb edən təşəbbüslərinin beynəlxalq formatlarda müzakirə predmetinə çevrilməsinin, bir sıra hallarda isə xüsusi toplantıların çağırılmasına səbəb olmasının şahidi olmuşuq.

Bu xüsusda Prezident İlham Əliyevin beynəlxalq miqyaslı siyasi lider kimi statusunun getdikcə yüksəlməsi ayrıca qeyd edilməlidir. Onun təşəbbüslərinin, müxtəlif beynəlxalq formatlarda səsləndirdiyi çağırışların mühüm əhəmiyyət kəsb edən beynəlxalq qərarların əsasını təşkil etməsinin davamlı xarakter alması diqqəti cəlb etməyə bilməz. İlham Əliyev bir çox mötəbər beynəlxalq tədbirlərin arzuolunan və xüsusi hörmətli iştirakçısı sayılmaqdadır. Heç şübhəsiz, onun beynəlxalq miqyasda yüksək nüfuzlu lider imici Azərbaycanın diplomatik uğur və nailiyyətlərinin əvəzolunmaz resursudur.

Azərbaycanın beynəlxalq həmrəylik sahəsində hər bir təşəbbüsü, o cümlədən ümumdünya miqyasında fəlakətə çevrilmiş koronavirus pandemiyasına qarşı mübarizə sahəsində əməkdaşlığın əlaqələndirilməsi məqsədilə BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması ilə əlaqədar təşəbbüsü ölkəmizin beynəlxalq əməkdaşlığa açıq, tolerant, demokratik, özünü dünya birliyinin bir hissəsi kimi dərk edən dövlət olmasından xəbər verir. Pandemiya dövründə Azərbaycan bir daha beynəlxalq həmrəyliyə və əməkdaşlığa sədaqətin bariz nümunələrini göstərdi. COVİD-19-a qarşı mübarizədə Ümumdünya Səhiyyə Təşkilatına könüllü ianə ayırmağımız, 30-dan çox ölkəyə humanitar yardım göndərməyimiz bu fikirlərin əyani təsdiqidir. Ölkəmiz bir daha sübuta yetirdi ki, dünya birliyi üçün əhəmiyyət kəsb edən heç nə ona yad deyil. Sülh, əmin-amanlıq, təhlükəsizlik, separatizmə və terrorizmə qarşı barışmazlıq, dövlətlərin ərazi bütövlüyünə hörmət, ədalət və bərabərlik kimi bəşəri dəyərlərə dərindən sədaqət Azərbaycan dövlətinin xarici siyasət sahəsində, beynəlxalq münasibətlər müstəvisində fəaliyyətinin fundamental prinsipləridir. Dünya birliyində bir sıra hallarda qarşılıqlı etimadın və həmrəyliyin çatışmadığı indiki dövrdə sadalanan həmin prinsiplər xüsusi əhəmiyyət kəsb edir. Məhz həmin prinsiplərə inam dövlətimizin beynəlxalq mövqeyini möhkəmləndirir, onun diplomatik nailiyyətlərinin fundamentini təşkil edir, Azərbaycanın beynəlxalq hüquq və dəstəkdən faydalanmaq imkanlarını qat-qat gücləndirir.

İnanıram ki, Prezident İlham Əliyevin yeni təşəbbüsü həm amansız COVİD-19 pandemiyasına qarşı beynəlxalq mübarizənin daha səmərəli şəkildə təşkil edilməsində, həm də qlobal miqyasda əməkdaşlıq və həmrəyliyin möhkəmləndirilməsində yeni imkanlar yaradacaq. Bu təşəbbüs eyni zamanda, diplomatiya tariximizə ümumdünya problemlərinin həllinə Azərbaycanın yeni və əhəmiyyətli töhfəsi kimi daxil olacaq".

## Hande Harmançı: Yalnız bu şəkildə özümüzü və yaxınlarımızı qoruya bilərik

Koronavirus onu dayandırmağı bacarana qədər həyatımızda olmağa davam edəcəkdir. Bunu başa düşməliyik. SİA-nın məlumatına görə, bunu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmançı deyib.

Onun sözlərinə görə, qarşımızda çox uzun bir yol var: "Xoşumuza getmədiyimiz, öyrəşmədiyimiz, bizim üçün çətin olacaq işləri görmək məcburiyyətində olacağımız aylar var. Başqa bir qısa yolu yoxdur. Hər kəs fiziki məsafəni qoruyub saxlasın, əllərini yusun, maska taxsın. Tibb işçiləri, test edin, özünüzü təcrid edin, təmaslarınıza diqqət edin. Yalnız bu şəkildə özümüzü və yaxınlarımızı qoruya bilərik".

# Adil Əliyev: "Bu günlərdə hər bir vətəndaş öz məsuliyyətini dərk etməlidir"



Koronavirusun ölkəmizdə yayılmağa başladığı ilk gündən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən vaxtında və zəruri tədbirlərin həyata keçirildiyi pandemiyaya qarşı mübarizədə görülən işlərin lazımi səviyyədə idarə olunmasını təmin etmək məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı. Pandemiyanın təsirini azaltmaq və zərərçəkmiş sahələrdə inkişafı təmin etmək üçün iqtisadi-sosial paketlər hazırlandı. İşlərin uğurla həyata keçirilməsi üçün dövlət büdcəsindən lazımi vəsait ayrıldı. Cənubi Qafqazda ilk dəfə olan tibbi maska və digər tibbi ləvazimatlar istehsal edən müəssisələr, bu bəlaya qarşı mübarizə məqsədilə modul və stasionar tibb müəssisələr açıldı. SİA xəbər verir ki, bu fikirləri Milli Məclis sədrinin müavini Adil Əliyev KİV-ə açıqlamasında bildirib. Adil Əliyev deyib: "Təbii ki, görülən işlər bütün dünyada tüğyan edən pandemiyanın ölkəmiz üçün yarada biləcəyi fəsadları minimuma endirməyə hesablanır. Həmin vaxt Birinci-vitse prezident Mehriban xanım Əliyeva növbəti xeyirxahlıq təşəbbüsü ilə çıxış etdi və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu aztəminatlı ailələrə yardımlar göstərməyə başladı. Xeyirxahlıq, vətəndaşların bir-birinə dəstək olması bizim əsas mental xüsusiyyətlərimizdən biri olmaqla yanaşı, vətəndaş cəmiyyəti institutunun prioritet istiqamətlərindəndir. Bu səbəbdən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən nəcib təşəbbüsə cəmiyyətin hər bir fərdi könüllü olaraq qoşuldu.

Görülən xeyirxah işlərin məntiqi davamı olaraq, deputat seçildiyim 20 saylı Nərimanov ikinci seçki dairəsində yerləşən ofisimdə (Nərimanov rayonu, Atatü?rk prospekti 33C, telefon: (012) 563-10-89; 561-73-65; (055) 766-21-35) bu sahədə işləri həyata keçirmək məqsədilə Dəstək və Əlaqələndirmə Mərkəzi yaratdıq. Bildiyiniz kimi, hazırda Bakı şəhəri də daxil olmaqla digər iri şəhər və rayonlarımızda karantin rejimi tətbiq olunmaqdadır. Sözügedən karantin rejimi vətəndaşların evdən çıxmaqlarına müəyyən məhdudiyyətlərin tətbiq edilməsini özündə ehtiva edir. Sözsüz ki, qeyd olunan bütün bu növdən olan tədbirlər xəstəliyin qarşısını almaq məqsədilə həyata keçirilir.

Təbii ki, karantin dövrü xüsusilə yaşlılara ehtiyaclarının əldə edilməsində müəyyən çətinliklər yaradır. Bu səbəbdən də mərkəzin əsas funksiyası onlara və aztəminatlı ailələrə ərzaq yardımlarının, ilkin tibbi ləvazimatların verilməsidir. Mərkəz tərəfindən müraciətlər əsasında aztəminatlı ailələrə yardımlar göstərilir, onların məişət qayğılarının və çətinliklərinin həll edilməsi istiqamətində zəruri tədbirlər görülür.

Eyni zamanda, tibbi, kommunal, iaşə və s. çətinliklərlə üzləşən şəxslər mərkəzə müraciət edir, habelə vətəndaşların aidiyyəti qurumlarla əlaqələndirməsinin həyata keçirilməsi təmin edilir. Mərkəz fəaliyyətə başladığı vaxtdan bu müddət ərzində bir sıra şəxslərin müraciətləri (xüsusilə də alimentin ödənilməməsi, işdən əsassız olaraq çıxarılma) daxil olub, həmin şəxslərə qanunvericiliyin mövcud tələbləri izah edilməklə yanaşı, aidiyyəti qurumlara və məhkəmələrə müraciət etmələri tövsiyə edilib.

Həmçinin, 26 İyun - Silahlı Qüvvələr Günü ilə əlaqədar mövcud pandemiya vəziyyəti səbəbindən övladları hərbi xidmətdə olan valideynlər onları ziyarət etmək imkanları olmadığı üçün övladları ilə əlaqə saxlamaq məqsədilə mərkəzə müraciət ediblər. Mərkəz tərəfindən həyata keçirilən "Əsgərimə salam de" layihəsi çərçivəsində onların mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə övladları ilə əlaqə saxlamaları təmin edilib. Tezliklə övladlarına qovuşmaqları üçün tibbi-gigiyena qaydalarına riayət edilməsi tövsiyə edilib. Bir daha bildiririk ki, ölkə başçısının müxtəlif çıxışlarında dediyi kimi, "Biz birlikdə güclüyük!", bu səbəbdən də hər birimiz "gözəgörünməz düşmən"ə qarşı mübarizədə öz məsuliyyətimizi dərk etməli, ehtiyac olmadan evdən çıxmamalı, sosial izolyasiyanı həyata keçirməli, zərurət yaranarsa evdən çıxarkən mütləq tibbi maskadan istifadə etməklə ara məsafəsini qorumalıyıq".

## COVID-19 vaksini Çində istifadə edilməyə başlanılıb



Çində sınaq müddətində olan COVID-19 vaksini orduda istifadə edilməyə başlanılıb. SİA xəbər verir ki, bu barədə "Global Times" qəzeti məlumat yayıb. Belə ki, Çinin peyvənd istehsalçısı olan şirkətlərindən biri "CanSino Biologics" Çin Xalq Qurtuluş Ordusunun nəzdində fəaliyyət göstərən tibbi araşdırma institutu ilə birgə yeni nov koronavirusa (COVID-19) qarşı peyvənd hazırlanıb. Ölkədə ən yüksək hərbi idarəetmə mexanizmi olan Çin Mərkəzi Hərbi Komissiyası vaksinin orduda istifadə edilməsi ilə bağlı icazəni təsdiq etdiyi açıqlanıb. Çin Mərkəzi Hərbi Komissiyasından 25 iyun tarixində razılıq əldə etdiklərini açıqlayan "CanSino Biologics" təsdiq sənədinin bir il ərzində qüvvədə olacağını bildirib. "Ad5-nCoV" adlı peyvəndin daha əvvəl ölkədaxili və xaricdə insanlar üstündə aparılmış klinik sınaqlarda müvəffəqiyyət əldə etdiyi və peyvəndin təhlükəsiz, həmçinin təsirli olduğu sübut olunub. "CanSino Biologics"dən verilən açıqlamada bu müddət ərzində yalnız hərbçilər üçün təsdiqlənmiş peyvəndin Çin Mərkəzi Hərbi Komissiyasının razılığı olmadan geniş tətbiq edilə bilməyəcəyi qeyd edilib.

## Bu işçilərə maaşdan əlavə pul veriləcək



Milli Məclisin dünən keçirilən iclasında "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə məsələ üçüncü oxunuşda müzakirəyə çıxarılıb. SİA-nın verdiyi məlumata görə, qanuna əlavə olunması təklif edilən yeni hissəyə əsasən, müvafiq icra hakimiyyəti orqanının işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, həmçinin probasiya xidmətinin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədi ilə cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitin 43 faizi müvafiq icra hakimiyyəti orqanının hesabına köçürülür. Bu vəsaitdən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur. Müzakirələrdən sonra dəyişiklik səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

# Prezident İlham Əliyevin qlobal əməkdaşlıq və həmrəyliyə xidmət edən təşəbbüsləri beynəlxalq səviyyədə böyük rəğbətlə qarşılanır

***İndi dünyanın sosial-iqtisadi və humanitar mənzərəsi olduqca mürəkkəb xarakterə malikdir. Çünki yeni növ koronavirus (COVID-19) infeksiyasının sürətlə yayılaraq 200-dən çox ölkəni cənginə alması ciddi qlobal problemlərin və qeyri-müəyyənliyin meydana çıxmasına səbəb olub. Bir çox inkişaf etmiş dövlət səhiyyə böhranı və sosial-iqtisadi problemlərlə üz-üzə qalıb. Dövlətlərin öz zəruri resurslarını və potensial imkanlarını maksimum səviyyədə səfərbər etmələrinə baxmayaraq, "COVID-19" adlı pandemiyanın yaratdığı fəsadları aradan qaldırmaq mümkün olmayıb. Ona görə də pandemiya şəraitində qlobal təşəbbüslərin irəli sürülməsi, səylərin birləşdirilməsi ehtiyacı meydana çıxıb.***

Təqdirəlayiq haldır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenə də qlobal liderlik keyfiyyətini və təşəbbüskarlığını ortaya qoyaraq çox mühüm ideyalar irəli sürüb. Koronavirus pandemiyasının müşahidə edildiyi ilk zamanlarda Prezident İlham Əliyev tərəfindən qlobal əhəmiyyətə malik təşəbbüslər ortaya qoyulub, regional və beynəlxalq səviyyədə resursların səfərbər olunması zərurəti dünya ictimaiyyətinin diqqətinə çatdırılıb. Bu mütərəqqi ideya və təşəbbüslərin beynəlxalq səviyyədə böyük maraqla və rəğbətlə qarşılanması isə Azərbaycana olan inam və etimadın daha bir bariz nümunəsidir.

### Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu uğurlu xarici siyasət Azərbaycan dünyada böyük etimad qazanaraq nüfuzlu dövlətə çevrilməsini təmin edib

Ümumiyyətlə, müstəqil Azərbaycanın dünyada böyük etimad qazanması, güclü və nüfuzlu dövlət olaraq etibarlı tərəfdaş kimi tanınması xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndərin rəhbərliyi ilə çoxşaxəli və milli maraqlara əsaslanan səmərəli xarici siyasət həyata keçirilib, bunun nəticəsində Azərbaycanın dünya birliyinə uğurlu inteqrasiyasının əsası qoyulub. Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəldikdən qısa müddət sonra BMT-nin üzvü olan böyük, nüfuzlu dövlətlərə səfərlər edib, ikitərəfli və çoxşaxəli münasibətlərin inkişafı istiqamətində mühüm addımlar atılıb və real nəticələr əldə olunub.

Ən mühüm məqamlardan biri budur ki, Ulu Öndər Heydər Əliyev bir neçə dəfə BMT Baş Məclisinin iclaslarında iştirak edərək bu mötəbər beynəlxalq təşkilatın tribunasından ölkəmizlə bağlı, xüsusilə Ermənistanın Azərbaycana qarşı təcavüzü və Dağlıq Qarabağ problemi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırıb. Ulu Öndər Heydər Əliyev 1994-cü ilin sentyabrında BMT Baş Assambleyasının 49-cu sessiyasında çıxış edərək Azərbaycan, Qafqaz regionu və ümumilikdə, dünya üçün həyati əhəmiyyət kəsb edən qlobal məsələlərə bağlı ölkəmizin mövqeyini beynəlxalq birliyin diqqətinə çatdırıb. 1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən BMT Baş Məclisinin xüsusi təntənəli iclasında və 2000-ci ilin sentyabr ayında BMT-də minilliyin sammitində çıxışı zamanı da Ümummilli Lider Heydər Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə, həmçinin beynəlxalq təhlükəsizlik məsələlərinə dair Azərbaycanın mövqeyini qətiyyətlə bəyan edib.



*Siyavuş Novruzov, YAP İcra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri*

Bu məqamda haşiyə çıxaraq bir nüansı xatırlatmaq yerinə düşər. Belə ki, AXC-Müsavat cütlüyünün bir illik hakimiyyəti dövründə antimilli xarakterli və yarıtmaz addımlar nəticəsində Azərbaycanın həm qonşu dövlətlərlə münasibətlərində gərginliklər meydana çıxmış, həm də ölkəmiz dünya siyasətində heç bir nüfuz qazanmamış, hətta mənfi imicə malik dövlət kimi tanınmışdır. Həmin dövrdə cəmi bir xarici səfər həyata keçirilmişdir ki, burada da böyük biabırçılıqlar müşahidə edilmişdir. Belə ki, nəzərdə tutulmuş plan-qrafikə və müəyyən olunmuş protokola əsasən 30 nəfərin aparılmalı olduğu Türkiyə səfərinə 90 şəxsin gedişi təşkil olunmuşdu. Hətta təşkil olunmuş tədbirdə bu yarıtmaz komandanın üzvlərinin siyasi etika və mədəniyyətdən uzaq davranışlarına görə qardaş Türkiyənin o zamankı Baş Naziri Süleyman Dəmirəli zalı tərk etmişdi.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti dövründə isə Azərbaycan dövlətinin beynəlxalq arenada müsbət imici formalaşmış, nüfuzu davamlı olaraq artmışdır. Eyni zamanda, Lissabon sammiti, digər mühüm zirvə toplantıları çərçivəsində və sonrakı dövrdə müxtəlif bəyanatlar, sənədlər kontekstində Azərbaycanın ərazi bütövlüyünə, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə alaqədar haqlı və ədalətli mövqeyinə birmənalı dəstək ifadə olunmuşdur. Bunlarla yanaşı, Ümummilli Liderin həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində Azərbaycan həm ikitərəfli münasibətlərini inkişaf etdirərək, həm də nüfuzlu beynəlxalq təşkilatlarda təmsilçiliyini gücləndirərək qlobal taleyüklü məsələlərin həllinə öz töhfələrini verib. Ölkəmiz regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasında, əməkdaşlığın möhkəmlənməsində fəal rol oynayıb.

### Ölkəmiz beynəlxalq əməkdaşlıq və təhlükəsizliyə mühüm töhfələr verir

Qürur hissi ilə qeyd etmək lazımdır ki, Ümummilli Liderin əsasını qoyduğu bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilib, Azərbaycan söz və nüfuz sahibi kimi qlobal proseslərdə aktiv mövqeyi ilə seçilib. Xüsusilə də, uğurlu xarici siyasət Azərbaycanın beynəlxalq mövqeyinin daha da möhkəmlənməsini, nüfuzunun davamlı olaraq artmasını təmin edib. Bu reallığı əks etdirən çoxsaylı faktlar mövcuddur. Onlar sırasında 2011-ci il oktyabrın 24-də Azərbaycanın BMT Baş Məclisinin plenar iclasında gizli səsvermənin nəticələrinə əsasən 2012-2013-cü illərdə Şərqi Avropa bölgəsini Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında təmsil edəcək qeyri-daimi (müvəqqəti) üzv seçilməsi xüsusi vurğulanmalıdır. Azərbaycan BMT TŞ-yə sədrlik müddətini uğurla həyata keçirib, bu dövrdə dünyanı narahat edən bir sıra mühüm məsələlər gündəliyə daxil edilib və səmərəli müzakirələr aparılıb. 2012-ci il may ayının 4-də Nyu-Yorkda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə BMT Təhlükəsizlik Şurasının yüksək səviyyəli iclası keçirilib. İclasda Azərbaycanın təşəbbüsü ilə "Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər" mövzusunda müzakirələr aparılıb. Prezident İlham Əliyev çıxışında Ermənistanın ölkəmizə qarşı yönəlmiş terrorçu siyasətini ifşa edib və Azərbaycanın prinsipial mövqeyini bir daha dünyanın ən mötəbər qurumunun tribunasından dünya ictimaiyyətinə çatdırıb. Bununla yanaşı, 2013-cü ilin oktyabrın 28-də BMT tarixində ilk dəfə olaraq ölkəmizin təşəbbüsü ilə qurumun "Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi" mövzusunda yüksək səviyyəli iclası keçirilib. Ümumilikdə, ölkəmizin bu quruma sədrliyi müddətində ümumilikdə qurumun 59 açıq və qapalı iclası keçirilib, 7 qətnamə, Şura sədrinin 3 bəyanatı və 13 mətbuat bəyanatı qəbul edilib. Bir sözlə, ədalətin və beynəlxalq hüququn norma və prinsiplərinin qorunmasını BMT Təhlükəsizlik Şurasında özünün prioritet məqsədi kimi qarşıya qoyan ölkəmiz iki il ərzində qurumun qeyri-daimi üzvü kimi uğurlu fəaliyyətini davam etdirib, sədrliyi dövründə beynəlxalq sülh və təhlükəsizliyin qorunmasına töhfələrini verib, Şuranın gündəliyində duran məsələlərin müzakirəsində fəal rol oynayıb və öz qətiyyətli mövqeyini ortaya qoyub.

### Azərbaycan qlobal sülhə və həmrəyliyə xidmət edən məqsədyönlü addımlar atır

Bunlarla yanaşı, tolerantlıq nümunəsi olan Azərbaycanın multikultural dəyərləri və sivilizasiyalararası dialoq ideyasını beynəlxalq miqyasda təbliğ etməklə qlobal sülh və inteqrasiya prosesinə vacib töhfələr verir. Ölkəmiz mütəmadi olaraq nüfuzlu beynəlxalq tədbirlərə müvəffəqiyyətlə ev sahibliyi edir, Azərbaycanda regional və qlobal əhəmiyyətli məsələlər, qlobal proseslər xüsusi müzakirə obyektinə çevrilir. Yəni Azərbaycan öz təklif və təşəbbüsləri ilə sivilizasiyalararası dialoqun inkişafına, dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə töhfələr verir. Təsadüfi deyil ki, Bakı Beynəlxalq Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu, Dini Liderlərin Zirvə toplantısı, Qlobal Bakı Forumu kimi mühüm tədbirlər, Birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və digər nüfuzlu yarışlar məhz beynəlxalq dialoq və əməkdaşlıq məkanı olan Azərbaycanda keçirilir. Bütün bunlar isə beynəlxalq mütəvidə qarşılıqlı anlaşma və əməkdaşlığa xidmət edir, sivilizasiyalararası dialoqun təşviqi və inkişafında yeni yanaşmaların, ideyaların meydana çıxmasına əlverişli zəmin yaradır.

Qeyd etdiyimiz məsələlər fonunda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətlərini də xüsusi vurğulamaq lazımdır. Mehriban xanım Əliyeva tərəfindən irəli sürülən mütərəqqi ideyalar və təşəbbüslər ümumbəşəri əhəmiyyətə malik olmaqla dünyada xalqlararası əməkdaşlığın möhkəmlənməsinə, mədəniyyətlərarası dialoqun güclənməsinə xidmət etməklə yanaşı, Azərbaycanın ikitərəfli və çoxtərəfli əlaqələrinin inkişafında, ölkəmizin beynəlxalq nüfuzunun artmasında mühüm rola malikdir. Təsadüfi deyil ki, Mehriban xanım Əliyeva indiyədək mədəniyyətin təbliği və beynəlxalq mədəniyyət mübadiləsi, elm, səhiyyə, idman, təhsil, texnologiya və ekologiyanın inkişafı işinə verdiyi töhfəyə, ümumdünya mədəni irsinin qorunub saxlanması işinə hərtərəfli dəstəyinə, sosial ədalət və humanizm prinsiplərinə sadiqliyinə görə müxtəlif nüfuzlu beynəlxalq mükafatlara layiq görülüb. Bütün bu faktlar isə, ümumilikdə, Azərbaycanın beynəlxalq müstəvidə artan rolunun və yüksək nüfuzunun bariz nümunələrini təşkil edir.

### Azərbaycan Prezidenti liderlik nümayiş etdirərək pandemiyaya qarşı mübarizədə bəşəriyyət üçün çox önəmli ideyalarla çıxış edir

Yuxarıda qeyd etdiyimiz kimi, "gözəgörünməz düşmənlə müharibə" kimi xarakterizə olunan pandemiya şəraitində Azərbaycan qlobal həmrəyliyə və əməkdaşlığa xidmət edən təşəbbüsləri ilə fərqlənir. Bu zamana qədər Prezident İlham Əliyevin rəhbərliyi ilə koronavirusa qarşı mübarizə çərçivəsində çox mühüm, ardıcıl və məqsədyönlü addımlar atılıb. Eyni zamanda, ölkəmiz COVID-19-a qarşı mübarizədə qlobal həmrəyliyin nümunəsi kimi Ümumdünya Səhiyyə Təşkilatına könüllü ianə ayırıb, 30-dan artıq dövlətə humanitar yardım göstərib.

Digər tərəfdən, Azərbaycan Prezidenti cənab İlham Əliyev çox əhəmiyyətli təşəbbüslər və ideyalarla çıxış edib, mühüm praktik addımlar atılıb. Dövlətimizin başçısının Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri statusunda təşəbbüsü ilə bu təşkilatın dövlət və hökumət başçıları səviyyəsində aprel ayında fövqəladə Zirvə görüşü keçirilib. Xatırlatmaq lazımdır ki, Türk Şurası COVID-19-a qarşı mübarizə mövzusunda Zirvə görüşü keçirən ilk beynəlxalq təşkilat olub.. Bununla yanaşı, Qoşulmama Hərəkatının sədri olan Prezident İlham Əliyevin təşəbbüsü ilə mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun COVID-19 pandemiyasına həsr edilmiş onlayn Zirvə görüşü təşkil edilib. Bu tədbirdə Qoşulmama Hərəkatına üzv dövlətlərlə yanaşı, BMT-nin Baş katibi, BMT Baş Assambleyasının prezidenti, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, Afrika İttifaqı və Avropa İttifaqı kimi beynəlxalq təşkilatların yüksək çinli nümayəndələri də iştirak ediblər. Prezident İlham Əliyev Qoşulmama Hərəkatının onlayn Zirvə görüşündə çıxışı zamanı qlobal həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifini irəli sürmüşdü. Bundan sonra təklif Nyu-Yorkda Qoşulmama Hərəkatına 120 üzv ölkə arasında yekdilliklə razılaşdırılıb. BMT-dən sonra dünya dövlətlərinin təmsil olunduğu ikinci ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatının sədri Prezident İlham Əliyev Qoşulmama Hərəkatı ölkələri adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə Baş katib Antonio Quterreşə müraciət ünvanlayıb. Heç şübhəsiz, BMT-nin 130-dək üzv dövləti tərəfindən bu təşəbbüsün dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük inam və etimadın növbəti göstəricisidir. Ən mühüm məqamlardan biri odur ki, təşəbbüsü dəstəkləyən ölkələr dünyanın bütün regionlarını əhatə edir. Beləliklə, Prezident İlham Əliyev üçün dünya ölkələri və bütövlükdə bəşəriyyət üçün olduqca həssas bir dönəmdə çox mühüm təşəbbüslərlə çıxış edir, Azərbaycanın nümunəvi təcrübəsini bölüşür və liderlik keyfiyyətini nümayiş etdirir. Başqa sözlə, qətiyyətli Liderin rəhbərlik etdiyi qüdrətli Azərbaycan bir daha qlobal taleyüklü məsələdə öz fəal rolu və liderlik missiyası ilə fərqlənir.

# Azərbaycana olan böyük etimadın göstəricisi

## Dünyanın 130-dan çox dövləti Prezident İlham Əliyevin təşəbbüsünü dəstəklədi



***Bu gün bütün sahələrdə olduğu kimi, koronavirusla mübarizə tədbirlərində də ölkəmiz dünyada özünəməxsus imic formalaşdırıb - Azərbaycan modeli. Bu reallıqdır. Çünki Azərbaycanın unikal təcrübəsi dünya tərəfindən qəbul edilir, bəyənilir. Həmçinin, reallaşdırılan sosial-iqtisadi dəstək proqramları, genişmiqyaslı antiböhran tədbirlər də beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir. Çünki Azərbaycan artıq beynəlxalq aləmdə inkişaf, tərəqqi, yüksəliş simvoluna çevrilir. Və bütün dünyanın etiraf etdiyi bu reallıq Prezident İlham Əliyevin fəaliyyətinə verilən haqlı və real qiymətdir. Belə ki, Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi təşəbbüsü ilə 2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun COVID-19 pandemiyasına həsr edilmiş onlayn Zirvə Görüşü zamanın həmrəylik çağırışı olmaqla yanaşı, həm də ilk növbədə dövlət başçısının dünyada böyük nüfuza malik lider olmasının göstəricisidir.***

Bir məqamı da vurğulamaq lazımdır ki, Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşündə təşkilata sədrliyi öz üzərinə götürən zaman Prezident İlham Əliyev bəyan etdi ki, Azərbaycan beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacaq, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacaq. Göründüyü kimi, COVID-19 pandemiyasına həsr edilmiş onlayn Zirvə görüşü də bir daha göstərdi ki, Azərbaycan Prezidentinin sözü ilə əməli birdir. Zirvə görüşündə ölkə başçısı Azərbaycanın koronavirusla mübarizə modelini dünyaya təqdim edərkən faciənin qarşısının alınması üçün həmçinin, dünyaya yol göstərdi. Və konfransda ölkə başçısı bəyan etdi ki, dövlətlər bir-birindən təcrid olunmalı deyillər. Çünki pandemiya ilə əlaqədar qlobalizasiya prosesi dayandırılıb.

Və Azərbaycan dünya üçün qlobal düşüncəni təqdim etdi. Bu, həmçinin dövlətləri və millətləri birləşdirən siyasət oldu. Bu siyasət Azərbaycan tərəfindən təqdim olundu. Azərbaycanın gördüyü işlər təkcə bu gün yox, gələcəkdə də öyrəniləcək.

### Dövlətləri və millətləri birləşdirən uğurlu siyasət

Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşündə təşkilata sədrliyi öz üzərinə götürən zaman Prezident İlham Əliyev bəyan etdi ki, Azərbaycan beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacaq, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacaq. Bəli, keçirilən Zirvə görüşü də bir daha göstərdi ki, Azərbaycan Prezidentinin sözü ilə əməli birdir. Və keçirilən bu görüş də bir daha göstərdi ki, Azərbaycan və Onun liderinə dünyada olan inam, etibar və etimad yüksəkdir. Çünki Azərbaycan hər zaman qlobal problemlərin həllində körpü rolunu oyanyıb. Azərbaycan Prezidenti və Birinci vitse-prezidentin məqsədyönlü fəaliyyətinin nəticəsi olaraq Bakı beynəlxalq humanitar və digər qlobal problemlərin həlli məsələsində bir dialoq mərkəzinə çevrilib. O baxımdan Azərbaycan qlobal pandemiya şəraitində dövlətlər və xalqlar arasında əlaqələr qurub, körpü yaratması indiyədək yürüdülən siyasətin məntiqi nəticəsi kimi dəyərləndirmək lazımdır. Prezident İlham Əliyev bir daha beynəlxalq aləmə sübut etdi ki, Azərbaycan dövləti ərazicə kiçik, əhalisinin sayına görə az olsa da, sözün əsl mənasında güclü dövlət və böyük xalqdır. Biz bunun koronavirus pandemiyasına qarşı apardığı effektiv mübarizə və bunun nəticəsində ölkəmizdə vəziyyətin nəzarətə götürülərək, daha az itki ilə çıxmaq istiqamətində həyata keçirdiyi fəaliyyətdə şahidi olduq. Ölkə başçısının tapşırığı ilə Azərbaycanda iqtisadi sabitliyi qorumaq, məşğulluqla bağlı problemləri həll etmək, makroiqtisadi və maliyyə sabitliyini təmin etmək üçün 3.5 milyard manatdan çox sosial-iqtisadi dəstək paketi qəbul olunub. Bütün bunlar Prezident İlham Əliyevin dünya səviyyəli uzaqgörən, müdrik liderlik qabliyyətinə malik olmasının bariz göstəricisidir.

### Azərbaycan diplomatiyasının növbəti uğuru - 130-dan çox dövlətin Prezident İlham Əliyevin təşəbbüsünü dəstəklədi

Dünyada COVID-19 pandemiyasının başlanmasından etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası tərəfindən regional və qlobal səviyyədə koronavirusa qarşı mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürülür və əməli addımlar atılır. Dövlət başçısının qlobal həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə çıxışı da bundan xəbər verir. Bu da diplomatiyamızın növbəti uğuru idi. BMT Nizamnaməsində də qeyd edilir ki, BMT Baş Assambleyası ehtiyac duyulduğu təqdirdə xüsusi sessiyalar keçirə bilər. Xüsusi sessiyalar BMT Təhlükəsizlik Şurasının və ya BMT-yə üzv ölkələrin çox hissəsinin müraciəti əsasında Baş katib tərəfindən çağırılmalıdır. Qurumun təsis olunmasından indiyə qədər Baş Assambleyanın xüsusi sessiyaları çox az hallarda keçirilib. Prezidentin bu təklifi Nyu-Yorkda Qoşulmama Hərəkatına 120 üzv ölkə arasında yekdilliklə razılaşdırılıb. Bunun ardınca Qoşulmama Hərəkatının sədri Prezident İlham Əliyev bu quruma üzv ölkələr adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə BMT-nin Baş katibi Antonio Quterreşə də müraciət ünvanlayıb. Qürurverici haldır ki, dövlətimizin başçısının bu təklifi yekdilliklə qəbul edilib və artıq 130-a qədər ölkə təşəbbüsə dəstək verdiyi barədə Baş katibin ofisini məlumatlandırıb. Bu təşəbbüsü dəstəkləyən ölkələr dünyanın bütün regionlarını əhatə edir. BMT-nin 130-a qədər üzv dövləti tərəfindən Qoşulmama Hərəkatının sədri statusunda Prezident İlham Əliyevin Baş Assambleyanın xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünün dəstəklənməsi ölkəmizin dünya birliyində artan nüfuzunun göstəricisidir. Və Azərbaycan Prezidentinin təşəbbüsü ilə BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyasının keçirilməsinin 130-dək dövlət tərəfindən dəstəklənməsi çox mühüm hadisədir. Və bu fakt bir daha təsdiqləyir ki, artıq dünyanın inkişaf etmiş dövlətlərinin Azərbaycana inam və etimadı artmaqdadır. Postsovet dövlətləri arasında Azərbaycanın dünya birliyində belə yüksəkliyə qalxması və beynəlxalq ictimaiyyətin inamını qazanması düzgün müəyyənləşdirilmiş siyasi kursun bariz nümunəsidir.

### Siyavuş Novruzov: "BMT-nin 130-dək üzv dövləti tərəfindən bu təşəbbüsün dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük inam və etimadın növbəti göstəricisidir"

YAP İcra katibinin müavini, Milli Məclisin regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov bildirib ki, qürur hissi ilə qeyd etmək lazımdır ki, Ümummilli Liderin əsasını qoyduğu bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilib, Azərbaycan söz və nüfuz sahibi kimi qlobal proseslərdə aktiv mövqeyi ilə seçilib: "Azərbaycan Prezidenti liderlik nümayiş etdirərək pandemiyaya qarşı mübarizədə bəşəriyyət üçün çox önəmli ideyalarla çıxış edir. Bu zamana qədər Prezident İlham Əliyevin rəhbərliyi ilə koronavirusa qarşı mübarizə çərçivəsində çox mühüm, ardıcıl və məqsədyönlü addımlar atılıb. Eyni zamanda, ölkəmiz COVID-19-a qarşı mübarizədə qlobal həmrəyliyin nümunəsi kimi Ümumdünya Səhiyyə Təşkilatına könüllü ianə ayırıb, 30-dan artıq dövlətə humanitar yardım göstərib. Digər tərəfdən, Azərbaycan Prezidenti İlham Əliyev çox əhəmiyyətli təşəbbüslər və ideyalarla çıxış edib, mühüm praktik addımlar atılıb. Dövlətimizin başçısının Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri statusunda təşəbbüsü ilə bu təşkilatın dövlət və hökumət başçıları səviyyəsində aprel ayında fövqəladə Zirvə görüşü keçirilib. Xatırlatmaq lazımdır ki, Türk Şurası COVID-19-a qarşı mübarizə mövzusunda Zirvə görüşü keçirən ilk beynəlxalq təşkilat olub. Bununla yanaşı, Qoşulmama Hərəkatının sədri olan Prezident İlham Əliyevin təşəbbüsü ilə mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun COVID-19 pandemiyasına həsr edilmiş onlayn Zirvə görüşü təşkil edilib. Bu tədbirdə Qoşulmama Hərəkatına üzv dövlətlərlə yanaşı, BMT-nin Baş katibi, BMT Baş Assambleyasının prezidenti, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, Afrika İttifaqı və Avropa İttifaqı kimi beynəlxalq təşkilatların yüksək çinli nümayəndələri də iştirak ediblər. Prezident İlham Əliyev Qoşulmama Hərəkatının onlayn Zirvə görüşündə çıxışı zamanı qlobal həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifini irəli sürmüşdü. Bundan sonra təklif Nyu-Yorkda Qoşulmama Hərəkatına 120 üzv ölkə arasında yekdilliklə razılaşdırılıb. BMT-dən sonra dünya dövlətlərinin təmsil olunduğu ikinci ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatının sədri Prezident İlham Əliyev Qoşulmama Hərəkatı ölkələri adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə Baş katib Antonio Quterreşə müraciət ünvanlayıb. Heç şübhəsiz, BMT-nin 130-dək üzv dövləti tərəfindən bu təşəbbüsün dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük inam və etimadın növbəti göstəricisidir. Ən mühüm məqamlardan biri odur ki, təşəbbüsü dəstəkləyən ölkələr dünyanın bütün regionlarını əhatə edir".

Beləliklə, belə çətin dönəmdə Qoşulmama Hərəkatına sədrlik edən ölkə kimi Azərbaycanın üzərinə düşən məsuliyyəti layiqincə yerinə yetirməsi, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq təşəbbüsünün dəstəklənməsi, beynəlxalq aləmdə yüksək qiymətləndirilməsi müstəqil Azərbaycana, onun Prezidentinə olan böyük etimadın, etibarın, inamın növbəti göstəricisidir.

Və Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi sessiyanın keçirilməsi beynəlxalq səviyyədə ictimai birliyin formalaşmasına, bütün üzv ölkələrin problemin həlli istiqamətlərində səyləri birləşdirməklə COVID-19-a qarşı mübarizədə birlik, həmrəylik nümayiş etdirməsinə mühüm töhfə olacaq.

**RƏFİQƏ KAMALQIZI**

# Cərimələrin artırılması vətəndaşların sosial məsuliyyətini də artıracaq



*İSA HƏBİBBƏYLİ,*
*AMEA-nın vitse prezidenti, millət vəkili*

***Ötən həftə məlum oldu ki, ölkədə karantin müddətinin uzadılmasına ehtiyac var və dünyadakı əksər dövlətlər kimi, biz də bu addımı atacağıq. Bu, virusla mübarizədə qalib gəlmək üçün vacibdirsə, demək, müzakirəyə ehtiyac yoxdur. Amma karantinin müddəti uzadılırsa, bundan irəli gələn bir çox başqa məsələlər də yoluna qoyulmasını tələb edir. Xüsusilə də, evdə qalmağa məcbur olan əhalinin üzləşdiyi sosial və iqtisadi problemlər də həll edilməlidirlər.***

Dövlət başçımızın həftə ərzində keçirdiyi videomüşavirə və videoiclasda bu məqamlara toxunuldu və onların yoluna qoyulması üçün həqiqətən çox böyük addımlar atıldı. Pandemiya başlayandan indiyə qədər məhz ölkə Prizedinin düşünülmüş siyasəti nəticəsində Azərbaycanda vəziyyəti nəzarət altında saxlamaq mümkün olub. Fakt odur ki, məhz bu düşünülmüş siyasətin nəticəsində ölkəmiz bu böhranlı vəziyyəti dünyanın bir çox ölkələrindən daha yaxşı idarə edə bilib.

Lakin onu da xüsusi olaraq vurğulamaq lazımdır ki, qlobal məsələyə çevrilən COVİD-19 virusuna qarşı mübarizənin əsas faktorlarından biri də insanların öz üzərlərində məsuliyyət hiss etmələri vacibliyidir. Xüsusilə, biz - parlamentin deputatları istər seçicilərimizlə, istərsə də bütün vətəndaşlara infeksiyadan qorunmanın yollarını təbliğ etməliyik. Çünki məsuliyyətli davranmaq digər insanların da bu təhlükədən yayınmasına xidmət edir. Bildiyimiz kimi, bu virus heç bir sərhəd tanımır. Ümumdünya Səhiyyə Təşkilatı başda olmaqla, dünya bu virusa qarşı mübarizə aparır və təəssüf ki, koronavirusa qarşı vaksinasiya tapılmayıb. Hətta dünyanın ən inkişaf etmiş ölkələri də koronavirusun yayılmasına qarşı sərhədləri bağlayır, uçuşları təxirə salır, müxtəlif məhdudiyyət tədbirlərini həyata keçirirlər. Yəni ölkələr maksimum vətəndaşlarının bu virusa az yoluxmasına çalışırlar. Eyni zamanda, daha tez qabaqlayıcı tədbirlər görən ölkələrdə virusa yoluxma halları daha az aşkar edilir. Xatırlatmaq yerinə düşərdi ki, cənab Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycan hökuməti də koronavirusa qarşı mübarizə istiqamətində daha tez qabaqlayıcı tədbirlər həyata keçirdi. Nazirlər Kabinetinin nəzdində Operativ Qərargah yaradıldı, insanlar operativ məlumatlandırılır, intensiv maarifləndirmə işləri aparılır.

Dünya ölkələri üzrə statistik rəqəmlərə, hətta ən inkişaf etmiş ölkələrə baxsaq, görürük ki, Azərbaycan dövləti daha ciddi, daha operativ və təxirəsalınmaz tədbirlər həyata keçirib. Artıq bir neçə ölkə ilə yerüstü və hava nəqliyyatı əlaqələri məhdudlaşdırılıb, lazımi, tələb edilən tədbirlər həyata keçirilir. məsuliyyətin tərkib hissələrindən biri də insanların maksimum evdə qalmaları və dezinfeksiya işlərini aparmasıdır. Digər tərəfdən, ictimai nəqliyyatda xəstəliyin yayılma imkanlarının geniş olduğunu nəzərə alaraq, insanlar qoruyucu vasitələrdən daha ciddi istifadə etməli və öz təhlükəsizlik məsələlərinə daha diqqətlə yanaşmalıdırlar.

Çünki pandemiyanın nə vaxt qurtaracağını da heç kim bilmir. Ona görə də, sayıqlığı itirmədən atılan addımları davam etdirmək lazımdır. İyun ayının 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılışında da sərtləşdirilmiş tədbirlərlə bağlı məsələyə toxunaraq bildirib ki, əsas məqsədi yoluxmanın sürətini azaltmaqdır. Aylardır ki, bəşəriyyət koronavirus bəlası ilə topsuz-tüfəngsiz vuruşur. Ölkəmizdə də pandemiya ilə əlaqədar məsələləri ciddi nəzarətdə saxlamaq, virusun geniş yayılmasının qarşısını almaq və insanların həyatını maksimum şəkildə qorumaq üçün zəruri və effektiv tədbirlər davam etdirilir. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasətin və görülən tədbirlərin nəticəsində virusa yoluxanların və ölənlərin sayı çox aşağı həddə idi, hətta Azərbaycan bu rəqəmlərə görə dünyanın azsaylı nümunəvi ölkələrdən biri idi. Əldə olunan bu uğurlu nəticələr ölkəmizdə karantin rejiminin tədricən yumşaldılmasına imkan verdi. Lakin əfsuslar olsun ki, karantin rejiminin yumşaldılması insanlarımızda müəyyən arxayınlıq yaratdı, yumşalmış karantin dövründə vətəndaşlarımızın bir qismi qoyulan qaydalara kifayət qədər riayət etmədi. Tibbi maskadan istifadə olunmaması, ara məsafəsinin saxlanmaması və digər pozuntu halları ölkəmizdə yoluxmaların və ölümlərin xeyli artmasına gətirib çıxardı. Dövlət başçısı bildirib ki, belə bir vəziyyətdə yeganə çıxış yolu karantin rejiminin sərtləşdirilməsi, cərimələrin həcmini artırılmasıdır: "İdarələrdə idarə rəhbərləri görəndə ki, onun işçisi maska taxmır, əlbəttə, tədbir görməlidir, dərhal reaksiya verməlidir, müvafiq qurumlara məlumat verməlidir. Əgər belə davam edərsə, mən deyəcəyəm ki, cərimələrin həcmini artırsınlar. Çünki indi böyük imkanlara sahib olan adamlar nə üçün 50 manat, 100 manat cərimə verirlər. O çıxır, maşınına oturur, hara istəyir gedir. Tutaq ki, onu saxladılar, saxlamadılar, onu da hələ bilmək olmur. Çünki hər kəsi saxlamaq da mümkün deyil. Cəriməni verir gedir, sonra istədiyini edir. Ona görə mən tapşırıq vermişəm ki, dövlət orqanları, yerli icra orqanları, hüquq mühafizə orqanları tərəfindən bu məsələyə daha ciddi nəzarət olmalıdır. Çünki bu, milli təhlükəsizlik məsələsidir".

Dövlət başçısı son həftələr bu xəstəliyə tutulanların sayının artmasının səbəbini bəzi vətəndaşların məsuliyyətsizlik davranışı nəticəsində olduğunu da diqqət çəkib: "Bu qaydalar haqqında artıq bəlkə min dəfə deyilib. Həm mən demişəm, həkimlər deyib, tibb mütəxəssisləri deyib, müxtəlif insanlar deyib. Təkcə Azərbaycanda yox, bütün dünyada bu qaydalar çox sadədir və onlara əməl etmək o qədər də böyük əziyyət tələb etmir - maska, məsafə və dezinfeksiya. Bu üç əsas amil insanları qoruyur. Əgər bu üç amilə əməl olunarsa, onda yoluxmanın sayı kəskin azalacaq. Ancaq biz nəyi görürük? Onu görürük ki, yumşalma tədbirlərindən sonra Azərbaycanda bu qaydalar kütləvi surətdə pozulur və məhz buna görə biz yenidən məhdudlaşdırıcı tədbirləri tətbiq etdik".

Dövlətimizin başçısı onu da bildirib ki, bu xəstəliklə yaşamağa məcburuq və artıq kütləvi surətdə yeni davranış qaydaları tətbiq edilməlidir: "Ona görə bütün ölkələrin əsas səyləri odur ki, yoluxmanın sürəti azalsın, az insan xəstələnsin və ölkələrin səhiyyə sistemi imkan versin ki, bütün xəstələr lazımi müalicə alsınlar. Odur ki, biz bu addımı atdıq və hesab edirəm ki, düz etmişik, baxmayaraq ki, indi bəzi ölkələr daha da irəliyə gedərək, daha çox yumşaldıcı addımlar atır. Necə deyərlər, dövlət nə lazımdırsa edir: "Dövlət nə lazımdırsa, onu edir. Bundan artıq nəsə etmək mümkün deyil. Çünki nə lazım idisə, biz onu etmişik və edəcəyik", - deyən dövlət başçısı bildirib ki, koronavirusa qarşı mübarizəyə istənilən vəsaiti xərcləməyə hazırıq, vəsaitimiz də var və heç kimdən də asılı deyilik: "Bəzi ölkələrdən fərqli olaraq, Azərbaycanın heç kimə müraciət etməyib. Onu da bildirməliyəm ki, beynəlxalq maliyyə qurumlarının məlumatına görə, dünyada 150 ölkə kredit üçün müraciət edib.

Yəni, beynəlxalq birliyin əksər hissəsi. Azərbaycan etməyib. Çünki ehtiyac yoxdur. Özümüz edirik, vəsaitimiz də var və xərcləyirik. Amma gərək indi məsuliyyətsiz adamlar bunu dərk etsinlər. Bir də ki, bu adamlara qarşı ictimai qınaq olmalıdır. Qapalı yerlərdə maska taxmayana qarşı, əlbəttə ki, cərimə tətbiq edilməlidir. Amma, eyni zamanda, bunu görən başqa vətəndaş onu tənbeh etməlidir, onu başa salmalıdır. Gözləməməlidir ki, polis gələcək, onu cərimələyəcək. Polis də insanları qorumaq üçün gecə-gündüz küçələrdədir, gecə-gündüz fasiləsiz işləyir. Ona görə qapalı şəraitdə hər kəs maska taxmalıdır".

Bəli, dövlət başçımızın müdrik liderliyi ilə bu təhlükənin qarşısının alınması və əhalinin sağlamlığının qorunması yolunda düşünülmüş addımlarına dəstək olmaq üçün insanlarımız da öz üzərlərində məsuliyyət hiss etmələri vacibdir. Bütün vətəndaşlarımız məsuliyyətli davranmalı, "Evdə qal" prinsipinə əməl olunmaqla digər insanların da bu təhlükədən yayınmasına nail olmalıyıq. Bir sözlə, koronavirusla bağlı situasiya hökumətin tam nəzarətindədir. Ola bilsin dövlət xalqın təhlükəsizliyi üçün bir qədər də zəruri və sərt addımlar atsın. Amma onu bilməliyik ki, bütün atılan addımlar Azərbaycan insanı, onun sağlamlığı və təhlükəsizliyi üçündür!

# Bəhruz Quliyev: "Prezident İlham Əliyev tərəfindən irəli sürülən növbəti çağırışın bəşəriyyətə mühüm töhfələr verəcəyini əminliklə söyləyə bilərik"



"Prezident İlham Əliyevin beynəlxalq miqyasdakı liderlik mövqeyi bir daha sübut edir ki, Azərbaycan dövləti dünyanı narahat edən bir sıra qlobal məsələlərdə mühüm ideyalarla çıxış etməklə yanaşı, həm də mərkəz rolunu oynamaqdadır". Bu fikirləri Trend-ə "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev BMT-nin 130-dək üzv dövləti tərəfindən Qoşulmama Hərəkatının Sədri statusunda Prezident İlham Əliyevin Baş Assambleyanın xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünün dəstəklənməsini şərh edərkən deyib.

Onun sözlərinə görə, bu eyni zamanda, beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük etimadın növbəti göstəricisidir. Belə ki, hazırkı dövrə qədər də bu cür əhəmiyyətli təşəbbüslərlə çıxışlar edən, dəstəklər alan Prezident İlham Əliyev artıq dünya ölkələrinin, o cümlədən nüfuzlu təşkilatların diqqətini irəli sürdüyü ideyalarına cəlb edir: "Xüsusilə, beynəlxalq ictimaiyyəti koronavirus pandemiyasına qarşı birgə mübarizə aparmağa, həmrəy olmağa dəvət edən dövlətimizin başçımızın çağırışları cavabsız qalmır, dəstək görür. Çünki bu çağırışlar bütövlükdə bəşəriyyətin mövcud təhlükədən tez bir zamanda qurtulmasına, dünya düzəninin əvvəlki mövqeyinə qaytarılmasına hesablanmış addımlardır. Onu da nəzərə alarsaq ki, pandemiya hələ yeni-yeni dünyanı öz ağuşuna almağa başlayarkən, Azərbaycan dövlətinin və Prezidentinin atdığı təxirəsalınmaz addımları, preventiv qərarları, eyni zamanda dünya ölkələrinə göstərdiyi humanitar yardımları ölkəmizin gücə və yüksək nüfuza malik olması reallığını sübuta yetirdi. Artıq Azərbaycan dövləti 30-dan çox ölkəyə humanitar yardımlar göstərib və göstərilməyə davam edir, Bu və bu kimi digər əhəmiyyət kəsb edən amillər baxımından, Prezident İlham Əliyevin çağırışlarına dərhal reaksiyalar verildi, bu gün də biz həmin dəstəyi görməkdəyik".

"Onu da unutmamalıyıq ki, məhz Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Sədri statusunda Prezident İlham Əliyevin təşəbbüsü ilə bu təşkilatın dövlət və hökumət başçıları səviyyəsində aprel ayında fövqəladə Zirvə görüşünün baş tutması, həmçinin ilk beynəlxalq təşkilat olaraq COVID-19-a qarşı mübarizəyə başlaması bütün dünyada rəğbətlə qarşılandı", deyə xatırladan siyasi ekspert qeyd edib ki, bu Zirvə görüşü sonradan digər bənzər təşkilatların da eyni addım atmalarına səbəb oldu: "Yeni Prezident İlham Əliyevin təşəbbüsü sonradan örnək olaraq tətbiq edildi və müsbət nəticələrini göstərdi. O cümlədən, Qoşulmama Hərəkatının da Sədri olan Prezident İlham Əliyevin təşəbbüsü ilə mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun COVID-19 pandemiyasına həsr edilmiş və 120 dövlətin qatıldığı onlayn Zirvə görüşünü də bu uğurların sırasına aid etmək olar".

"SƏS" qəzetinin baş redaktoru sonda bildirib ki, dövlətimizin başçısının təşəbbüsü ilə baş tutacaq növbəti xüsusi sessiya da pandemiya ilə mübarizədə beynəlxalq ictimaiyyətin tam səfərbər edilməsinə şərait yaratmaqla yanaşı, bəşər övladının bu təhlükədən tez bir zamanda qurtulmasına da böyük töhfələrini bəxş edəcək: "İnanırıq ki, beynəlxalq həmrəylik, dəstək addımları dünya ölkələrinin koronavirusa qarşı effektiv mübarizəsini sürətləndirəcək, dinamik hala gətirəcək. Prezident İlham Əliyev tərəfindən irəli sürülən növbəti belə bir çağırışın, əldə edilən dəstəyin insanlığa, bəşəriyyətə mühüm yararlar, töhfələr verəcəyini əminliklə söyləyə bilərik".

# "Karantin qaydalarının pozulmasına görə təyin edilmiş cəzalar sərtləşdirilməlidir"



"Koronavirus dünyanı cənginə alıb, bəzi dövlətlərdə bu qorxunc virusun ikinci dalğası, qayıdış mərhələsi başlayıb, ortada böyük insan itkisi, tələfatı var, az qala bütün bəşəriyyət ayaq üstədədir, həyəcan təbili çalır, amma nə təəssüf ki, hətta bu dönəmdə belə məlum pandemiyanı ciddiyə almayanlar tapılır.

Elə öz məmləkətimizdə də. Oysa, vəziyyət həqiqətən ciddidir. Diqqətli olmalıyıq. Hamılıqla. Birmənalı şəkildə. Eyni zamanda düşünürəm ki, karantin qaydalarının pozulmasına görə təyin edilmiş cəzalar da sərtləşdirilməlidir və bu cəzalar insan həyatını təhlükəyə atan məsuliyyətsizliyin miqyasına adekvat olmalıdır" . Bunu SİA-ya açıqlamasında millət vəkili, Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev koronavirusla mübarizə kontekstində müşahidə olunan mövcud durumu şərh edərkən bildirib.

E.Musayevin sözlərinə görə, ölkəmizin dəyərli vətəndaşları hamılıqla fərqində olmalı, anlamalıdırlar ki, ani bir səhv, yanlışlıq, səhlənkarlıq kimlərisə bu həyatdan günahsız yerə apara bilər, kimsə başqa birinin ucbatından atasız, anasız, övladsız, əsiz, xanımsız qala bilər: "Təbii, bu dönəm hamı üçün çətindir, hər kəsin arzusu budur ki, tezliklə əvvəlki həyatımıza qayıdaq. Fəqət, arzu ilə hər şey bitmir axı. Məsələ burasındadır, elə məhz bu arzunun reallaşması üçün də indiki rejimdə məsuliyyətli olmalıyıq, tələb olunan qaydalara riayət etməliyik. Qapalı yerlərdə maskanın taxılması ciddi zərurətdir. Bu tələbə mütləq şəkildə əməl edilməlidir. İnsanlar küçələrə icazəsiz çıxılmamalıdır, qaydaları pozmaq üçün bəhanələr axtarmamalıdır. Çox sadə elementlərdi, bütün məlum icraatlar. Onlara riayət etmək də çətin deyil və yalnız riayət edilmədiyi halda faciələrə yol açılır. Həm də çox böyük faciələrə. Amma madam ki, insanların bəzi qismi hələ də həmin təhlükənin fərqində deyil, o zaman karantin qaydalarını şüurlu şəkildə pozanlara qarşı cəzaların sanksiyalarının artırmaqdan savayı da yol qalmır. Bu mənim şəxsi fikrimdir və düşünürəm ki, təmsilçisi olduğum qanunverici orqan hazırda qüvvədə olan cəzaların sərtləşdirilməsi ilə bağlı gecikmədən təcili addımlar atmalıdır".

***Gülyana***

# Azərbaycan dövləti hər zaman öz sosial siyasətini uğurla həyata keçirir

## *İlham Əliyev: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"*

***Ötən 2019-cu il müasir həyatımızın bütün sahələrində qazanılan yüksək nailiyyətlərlə və uğurla gerçəkləşdirilən dərin islahatlarla əlamətdar olub. Belə ki, ölkə Prezidenti cənab İlham Əliyevin ardıcıl həyata keçirdiyi sistemli siyasi, iqtisadi, sosial, struktur və kadr islahatlarının sayəsində Azərbaycanın bütün parametrlər üzrə davamlı inkişafı təmin edilib.***

Təsadüfi deyil ki, Dünya Bankı da "Doing Business 2019" hesabatında Azərbaycanı dünyanın ən çox islahat aparan ölkəsi elan edib. Eyni zamanda, məmnunluq hissi ilə qeyd etməliyəm ki, müzakirəmizə təqdim olunan "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi və müvafiq hesabat "Büdcə sistemi haqqında" Qanuna əsasən yüksək peşakarlıqla hazırlanıb. Bu barədə fikirlərimi komitəmizin - İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin son iclasında da bildirmişəm və bir daha qeyd etmək istəyirəm ki, hesabat 2019-cu ildə Azərbaycanda formalaşmış makroiqtisadi mühiti, dövlət maliyyəsinin idarə olunmasının təkmilləşdirilməsini, o cümlədən yeni büdcə qaydasının tətbiqi və onun nəticələrini, ötən il dövlət büdcəsində nəzərdə tutulan gəlir və xərclərin icra göstəricilərini, il ərzində dövlət borclanmasına dair vəziyyəti və digər zəruri məlumatları özündə əks etdirir. 2019-cu ilin dövlət büdcəsi dövlət başçısının müəyyən etdiyi strateji inkişaf prioritetləri və sosial-iqtisadi siyasət istiqamətləri ilə uzlaşdırılaraq qlobal iqtisadiyyatda gedən proseslərin icmal və dövlət büdcələrinin əsas parametrlərinə ehtimal olunan təsirləri nəzərə alınmaqla icra olunub.



**_Ağalar Vəliyev_**
**_Milli Məclisin deputatı_**

Xüsusilə də vurğulamaq gərəkir ki, 2019-cu ildə makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi, iqtisadi artımın sürətlənməsi və fiskal dayanıqlılığın gücləndirilməsi fonunda ölkədə əlverişli xarici iqtisadi mövqe formalaşıb, qeyri-neft sektorunun ixrac potensialı genişlənib. Milli valyutanın mübadilə məzənnəsinin sabitliyi qorunub, təkrəqəmli inflyasiya səviyyəsinə nail olunub, bütövlükdə iqtisadiyyatda 2,2 faiz real artımla 81,7 milyard manat dəyərində ümumi daxili məhsul (ÜDM) istehsal edilib. Adambaşına düşən ÜDM-in həcmi isə 8247,0 manat təşkil edir. İqtisadiyyatın qeyri-neft sektorunda 2018-ci illə müqayisədə 3,5 faiz real artım əldə edilib. Qeyri-neft ÜDM-inin tərkibində aparıcı rola malik kənd təsərrüfatında 7,3 faiz, turizmdə 6,4 faiz, nəqliyyat sektorunda isə 1,0 faiz real artım müşahidə olunur. Ötən il ÜDM-in pay bölgüsündə ən böyük (41,4 faiz) çəkiyə malik sənayedə 33,8 milyard manatlıq, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 4,7 milyard manatlıq (xüsusi çəkisi 5,7 faiz), tikintidə 5,9 milyard manatlıq (xüsusi çəkisi 7,3 faiz) əlavə dəyər istehsal edilib. Xidmət sahələrinin istehsalında yaranan əlavə dəyər ÜDM-in 36,9 faizini təşkil edib. Əhalinin nominal gəlirlərinin həcmi 2018-ci ilə nisbətən 7,4 faiz artaraq 57,0 milyard manata çatıb, hər nəfərə düşən gəlir 6,5 faiz artaraq 5758,6 manat olub ki, bu da orta hesabla ayda 479,9 manata bərabərdir. Ölkə üzrə orta aylıq əməkhaqqı 2018-ci illə müqayisədə 16,6 faiz artaraq 634,8 manat təşkil edib. Bununla yanaşı, dövlətin valyuta ehtiyatları həcmi hesabat ilində 6,6 milyard ABŞ dolları artaraq 2020-ci ilin 1 yanvar tarixinə 51,1 milyard ABŞ dollarına çatmaqla ümumi daxili məhsulu 6,3 faiz üstələyib. Ümumiyyətlə, 2019-cu ildə dövlət büdcəsinin gəlirləri 23168,0 milyon manat proqnoza qarşı 24218,1 milyon manat təşkil edib. Proqnozla müqayisədə 1050,1 milyon manat və ya 4,5 faiz, 2018-ci illə müqayisədə isə 1709,2 milyon manat və ya 7,6 faiz çox icra təmin olunub. Büdcənin gəlirlərinin 7672,3 milyon manatı və 31,7 faizi İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, 4408,6 milyon manatı və ya 18,2 faizi Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 11364,3 milyon manatı və ya 46,9 faizi Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin, 772,9 milyon manatı və ya 3,2 faizi digər gəlirlərin (578,9 milyon manatı büdcə təşkilatlarının ödənişli xidmətlərindən, 182,6 milyon manatı sair daxilolmalardan, 11,4 milyon manatı dövlət əmlakının, özəlləşdirilən dövlət müəssisə və obyektlərinin altındakı torpaqların icarəyə verilməsindən daxilolmalardan) payına düşür. Dövlət Neft Fondundan dövlət büdcəsinə transfer nəzərə alınmadan 2019-cu ildə dövlət büdcəsinin gəlirləri 12853,8 milyon manat təşkil edib ki, bu da 2018-ci illə müqayisədə 1303,9 milyon manat və ya 11,3 faiz çoxdur. Ötən il dövlət büdcəsinin xərcləri 25190,0 milyon manat proqnoza qarşı 24425,9 milyon manat və ya 97,0 faiz icra edilib. 2018-ci ilə nisbətən bu göstərici 1694,3 milyon manat və ya 7,5 faiz çoxdur. Bununla belə, 2019-cu il dövlət büdcəsi xərclərinin 13528,9 milyon manatı və ya 55,4 faizi cari xərclərə (2018-ci illə müqayisədə 1974,5 milyon manat və ya 17,1 faiz çox), 9372,2 milyon manatı və ya 38,4 faizi əsaslı xərclərə (2018-ci illə müqayisədə 430,6 milyon manat və ya 4,8 faiz çox), 1524,8 milyon manatı və ya 6,2 faizi dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərə yönəldilib. Sevindirici və təqdirəlayiq haldır ki, 2019-cu il dövlət büdcəsi xərclərinin 31,8 faizi və ya 7761,3 milyon manatı sosialyönlü xərclərin maliyyələşdirilməsinə yönəldilib və bu 2018-ci illə müqayisədə 564,8 milyon manat və ya 7,8 faiz çoxdur. Ölkə əhalisinin sosial müdafiəsinin daha da möhkəmləndirilməsi istiqamətində 2019-cu ildə bir sıra mühüm qərarlar qəbul edilib, sosial müavinət və təqaüdlər orta hesabla 92,0 faiz, minimum pensiyanın məbləği 72,0 faiz, minimum əməkhaqqı 92,0 faiz artırılıb.

Eyni zamanda, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün yemək xərci müavinəti, kommunal və digər xidmətlər üzrə dövlət büdcəsindən ödənişlər əvəzinə müəyyən edilmiş vahid aylıq müavinətin məbləği 2019-cu il aprel ayının 1-dən 50 faiz artırılıb. Bu sosial tədbirin maliyyə təminatı 83,0 milyon manat olmaqla, 500 min nəfər əhalini əhatə edib. 2019-cu ildə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 296,7 milyon manat vəsait istifadə olunub. İstifadə olunmuş vəsaitin 237,3 milyon manatı və ya 80,0 faizi əsaslı vəsait qoyuluşu xərclərinin, 59,4 milyon manatı və ya 20,0 faizi cari xərclərin maliyyələşdirilməsinə yönəldilib. Cari xərclərə yönəldilən vəsaitin 14,5 milyon manatı və ya 24,4 faizi sosialyönlü tədbirlərin maliyyə təminatına sərf edilib. Bildiyiniz kimi, regionların davamlı inkişafının təmin olunması Azərbaycanın son 16-17 ildəki siyasətinin əsas prioritetlərindəndir. Odur ki, bu istiqamətdə inkişafın təmin olunması, ən əsas ölkə iqtisadiyyatının neft sektorundan asılılığının mərhələlərlə azaldılması, müasir tələblərə uyğun infrastrukturların yaradılması, əhalinin rifah halının, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, ölkədə sosial xidmətlərə olan tələblərin ödənilməsi və dövlətin digər funksiyalarının həyata keçirilməsi üzrə qəbul olunmuş dövlət proqramlarının və tədbirlərin icrası 2019-cu ildə də davam etdirilib və həmin məqsədlərə 5270,5 milyon manat vəsait yönəldilib. 2019-cu ildə dövlət büdcəsinin yerli gəlirləri 738,8 milyon manat proqnoza qarşı 884,9 milyon manat məbləğində və ya 19,8 faiz çox icra olunub. 2018-ci ilə nisbətən isə yerli gəlirlər 166,5 milyon manat və ya 23,2 faiz çox olub. Dövlət büdcəsinin yerli xərcləri isə 842,8 milyon manat proqnoza qarşı 802,6 milyon manat və ya 95,2 faiz olub. 2019-cu il üzrə yerli xərclərin məbləği 2018-ci ilə nisbətən 103,6 milyon manat və ya 14,8 faiz çox olub. Hesabata əsasən, 2019-cu ilin dövlət büdcəsində 207,8 milyon manat məbləğində kəsir (defisit) yaranıb ki, bu da proqnozlaşdırılan 2022,0 milyon manat kəsirdən 1814,2 milyon manat və ya 9,7 dəfə azdır.

2020-ci il 1 yanvar tarixinə vahid xəzinə hesabının sərbəst qalığı 2342,2 milyon manat, o cümlədən manatla 952,8 milyon manat və xarici valyutaların manat ekvivalenti ilə 1389,4 milyon manat təşkil edib. Həmçinin, 2019-cu il icmal büdcənin gəlirləri 29234,8 milyon manat proqnoza qarşı 16,2 faiz çox və ya 33966,7 milyon manat, xərcləri isə 27370,9 milyon manat məbləğində olmaqla proqnozun 96,8 faizini və ya 26506,1 milyon manatını təşkil edib. Bundan savayı, 2019-cu ilin icmal büdcəsi 1863,9 milyon manat büdcə artıqlığı (profisit) ilə proqnozlaşdırılsa da, faktiki artıqlıq 7460,6 milyon manat və ya ÜDM-in 9,1 faizi həcmində (proqnoza nisbətən 6,8 faiz-bənd çox) olub. Dövlət Neft Fondunun gəlirləri nəzərə alınmadan icmal büdcədə 11570,0 milyon manat kəsir qeydə alınıb, bu da 2019-cu ilin ÜDM-inin 14,3 faizini təşkil etməklə, proqnozlaşdırılmış həddən 3,0 faiz-bənd azdır. Bir sözlə, 2019-cu ildə dövlət büdcəsinin uğurlu icrası 2020-ci ilin sürətli iqtisadi inkişafı üçün də mühüm zəmin yaratdı. Ancaq gözlənilmədən baş verən, bütün dünyanı qəfildən yaxalayan və cənginə alan pandemiya şəraiti iqtisadi inkişaf tempimizə təsir etsə də, bu ilin ilk 5 ayının büdcə gəlirlərinin proqnozdan artıq 500 mln. manat icra edilməsi mühüm uğur sayılmalıdır. Suveren iqtisadi ehtiyatlara sahib olan Azərbaycan dövlətinin hazırkı dövrdə atdığı operativ iqtisadi addımlar Azərbaycan iqtisadiyyatının bu çətin şəraitdən minimum itki ilə çıxmasına və postpandemiya dövründə iqtisadi inkişaf tempini bərpa etməyə imkan verəcək.

Buna ölkəmizin potensialı, təbii və insani resursları tam imkan verir. Ən əsası isə ölkə prezidentinin iradəsi ortadadır!



# Milli Məclisin iclasında 17 məsələ müzakirə olunub



***İyunun 29-da Azərbaycan Respublikası Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, parlamentin Sədri Sahibə Qafarova iclasın gündəliyinə 17 məsələnin daxil edildiyini bildirib. O deyib ki, birinci məsələ Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Qanununun layihəsidir.***

Sahibə Qafarova qeyd edib ki, son vaxtlar ölkəmizdə koronavirus infeksiyasına tutulanların sayında artım var. Bunun əsas səbəblərindən biri də epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin tələblərinə ciddi riayət edilməməsi, hətta bir sıra hallarda etinasızlıq göstərilməsidir. Bununla əlaqədar ictimaiyyətin, eləcə də deputatların narahatlığını nəzərə alaraq Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi haqqında qanun layihəsi hazırlayıb. Layihədə infeksiyanın yayılmasına qarşı tədbirlərin səmərəliliyini artırmaq məqsədilə cərimə sanksiyalarının sərtləşdirilməsi nəzərdə tutulub. Qanun layihəsində yalnız rəqəm dəyişikliyi nəzərdə tutulduğuna görə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələblərinə görə layihə bir oxunuşda qəbul ediləcək.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Qanununun layihəsini təqdim edib. O deyib ki, qanun layihəsi məcəllənin 211.1, 211.2 v. 211.3-cü maddələrində əksini tapmış inzibati tənbeh tədbiri növlərində cərimələrin miqdarının artırılmasını nəzərdə tutur. Belə ki, epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulmasına görə fiziki şəxslər 200 manatdan 400 manatadək məbləğdə, vəzifəli şəxslər 3 min manatdan 4 min manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər 4 min manatdan 10 min manatadək məbləğdə cərimə edilirlər.

Epidemiya əleyhinə rejim, sanitariya-gigiyena və karantin rejimləri dövründə fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər və hüquqi şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə fiziki şəxslər 100 manat məbləğində, vəzifəli şəxslər 200 manat məbləğində, hüquqi şəxslər 400 manat məbləğində cərimə edilir. Xətanın bir il ərzində təkrar törədilməsinə görə fiziki şəxslər 200 manat məbləğində, vəzifəli şəxslər 400 manat məbləğində, hüquqi şəxslər 800 manat məbləğində cərimə edilirlər.

Parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov qanun layihəsi ilə bağlı fikirlərini bildiriblər. Onlar ölkəmizdə koronavirus infeksiyası ilə mübarizə sahəsində həyata keçirilən genişmiqyaslı tədbirlər, dövlət tərəfindən vətəndaşlara göstərilən diqqət və qayğıdan danışıb, karantin rejiminə riayət edilməsinin vacibliyini vurğulayıblar. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) təqdim olunub. Layihə barədə məlumat verən Regional məsələlər komitəsinin üzvü Kamran Bayramov deyib ki, dəyişikliklərdə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan tərəfindən bələdiyyələrin yol verdiyi pozuntularla yanaşı, onları yaradan səbəb və şəraitin aradan qaldırılması, bələdiyyə aktlarına 15 iş günü müddətində baxılması, inzibati nəzarət icraatı zamanı dövlət orqanları və qurumlarına sorğuların göndərilməsi və məlumatların alınması təklif olunur. Habelə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın apardığı araşdırma zamanı bələdiyyələrin vəzifəli şəxslərindən, bələdiyyə qulluqçularından yazılı məlumatlar və arayışlar almaq hüququnun verilməsi nəzərdə tutulur. Bu dəyişikliklər orqanın fəaliyyətinin təkmilləşdirilməsi, inzibati nəzarət icraatının daha səmərəli, dolğun və hərtərəfli şəkildə həyata keçirilməsi üçün şərait yaradacaq. Qanun layihəsi üçüncü oxunuşda təsdiq olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "İcra məmurları haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) sənədi təqdim edib. O xatırladıb ki, 2017-ci il 10 fevral tarixində Ədliyyə Nazirliyinin tərkibində Probasiya Xidməti yaradılıb. Bu xidmətin vəzifəsi cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına nəzarəti təşkil etməkdən ibarətdir. Bu məqsədlə cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitin müəyyən faizinin Ədliyyə Nazirliyinin hesabına köçürülməsi təklif olunur. Müvafiq dəyişiklik xidmət əməkdaşlarının maddi və sosial müdafiəsinin gücləndirilməsi, xidmətin maddi-texniki təminatının yaxşılaşdırılması üçün nəzərdə tutulub. Layihə səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov İnzibati Xətalar Məcəlləsinə ediləcək dəyişikliklər haqqında (üçüncü oxunuş) məlumat verərək qeyd edib ki, təklif olunan dəyişikliklər "Telekommunikasiya haqqında" Qanuna əsasən, telekommunikasiya operatorları və provayderlər tərəfindən hüquq-mühafizə orqanlarının sorğularına cavabların gecikdirilməsinə və tələb olunan məlumatların təqdim edilməməsinə görə tətbiq olunacaq cərimələrin məbləğini və inzibati məsuliyyət növlərini özündə ehtiva edir. Sənəd üçüncü oxunuşda qəbul edilib.

İclasda bildirilib ki, növbəti üç məsələ ölkə Prezidenti tərəfindən bir məktubda daxil olub. Deputat Nizami Səfərov həmin məsələləri - Cəzaların İcrası, Cinayət və İnzibati Xətalar məcəllələrinə təklif edilən dəyişiklikləri (üçüncü oxunuş) şərh edib. O deyib ki, dəyişikliklər Ədliyyə Nazirliyinin Probasiya xidmətinin daha geniş tətbiqi məqsədilə aparılır. Belə ki, barəsində ictimai cəza və inzibati tənbeh qərarı çıxarılmış şəxslər də elektron nəzarət vasitəsi gəzdirəcək. Məhkəmə tərəfindən ictimai işlərə məhkum edilmiş şəxslərin üzərinə ictimai işlərin yerinə yetirildiyi yerlərdə elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək vəzifəsi qoyulur. Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova layihələrlə bağlı fikirlərini açıqlayıb, təkliflərini verib. Sənədlər ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Telekommunikasiya haqqında" Qanunda dəyişiklik edilməsi barədə sənədi üçüncü oxunuşda təqdim edib. O bildirib ki, qanunda "az" ölkə kodlu, yüksək səviyyəli domen adlarının tənzimlənməsinə dair müddəalar nəzərdə tutulub. Qanun layihəsi üçüncü oxunuşda təsdiqlənib.

Diqqətə çatdırılıb ki, gündəliyin növbəti iki məsələsi uyğunlaşdırma xarakteri daşıyır və bir oxunuşda qəbul ediləcək.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Prokurorluq haqqında", "İcra məmurları haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Dövlət qulluğu haqqında", "İcra haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında", "Ələt azad iqtisadi zonası haqqında" və "Mediasiya haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib.

Qeyd edilib ki, 2019-cu il 9 iyul tarixli 1632-VQD nömrəli Qanunla "Məhkəmələr və hakimlər haqqında" Qanuna dəyişikliklər edilərək inzibati-iqtisadi məhkəmələr inzibati məhkəmələr adlandırılmış, bununla əlaqədar bu məhkəmələrin baxdığı işlər sırasından iqtisadi mübahisələrə dair işlər çıxarılmış, eləcə də kommersiya məhkəmələri yaradılmış və birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş kommersiya mübahisələrinə dair işlərə baxılması bu məhkəmələrin səlahiyyətlərinə aid edilmişdir.

Layihə "İnzibati məhkəmələrin və kommersiya məhkəmələrinin təşkili və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1632-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 iyul tarixli 1325 nömrəli Sərəncamının 5.4-cü bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır. Qanun layihəsi səsə qoyularaq qəbul olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə məlumat verib.

Bildirilib ki, tikintidə dövlət nəzarətinin həyata keçirilməsinin spesifikliyini və bu məsələlərin Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi və ona uyğun olaraq qəbul edilmiş normativ hüquqi aktlarla tənzimləndiyini nəzərə alaraq, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanun bu sahədə yoxlamaların aparılması məsələlərini ehtiva edir.

Təklif edilən qanun layihəsi tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi ilə əlaqədar yoxlamalara qeyd olunan qanunun 26-cı maddəsinin (məhsul nümunələrinin götürülməsi və onların tədqiqi ilə bağlı işlərin (xidmətlərin) dəyərinin ödənilməsi) tətbiqinə hüquqi əsaslar yaradır. Qanun layihəsi istehsal edilən və ya satılan (satış üçün nəzərdə tutulan) hər hansı inşaat məhsulunun və ya xammalın müəyyən edilmiş tələblərə uyğunluğunun yoxlanılması zamanı götürülən məhsul nümunələrinin dəyərinin ödənilməsi məsələlərini tənzimləməklə (götürülən məhsulun dəyərinin yoxlayıcının hesabına ödənilməklə), sahibkarların maraqlarının müdafiəsinə xidmət edir. Qanun layihəsi səsə qoyularaq qəbul olunub.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bir zərfdə daxil olmuş növbəti dörd məsələ - Vergi Məcəlləsinə, "Notariat haqqında", "Sosial sığorta haqqında" və "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" qanunlara təklif olunan dəyişikliklər barədə (ikinci oxunuş) məlumat verib. Bildirib ki, bu dəyişikliklər elektron icra, elektron notariat və elektron məhkəmə informasiya sistemlərinin genişləndirilməsi və bu sistemlər arasında məlumat mübadiləsinin labüdlüyü ilə bağlıdır. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda təsdiqlənib.

Daha sonra ölkə Prezidenti tərəfindən bir məktubla daxil olmuş növbəti üç məsələyə baxılıb. Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil İbrahimli qanun layihələri barədə məlumat verib.

Bildirilib ki, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" və "Qrant haqqında" qanunlara təklif edilən dəyişikliklər həm uyğunlaşdırma, həm də rəqəmsal texnologiyanın inkişafı nəticəsində elektron xidmətlərdən istifadənin daha da genişləndirilməsi, həmçinin "Elektron imza və elektron sənəd haqqında" Qanuna uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının elektron sistemindən istifadə zamanı sənədlərin əldə edilməsinin asanlaşdırılması məqsədini daşıyır.

Hər üç qanun layihəsi ayrı-ayrılıqda ikinci oxunuşda qəbul edilib. Bununla da Milli Məclisin iclası başa çatıb.

# "Prezidentin təşəbbüsü qlobal liderliyin göstəricisidir"



***"Koronavirus pandemiyasına qarşı mübarizə ilk gündən hər bir ölkədən yalnız daxildə deyil, regional və qlobal çərçivədə birliyə, həmrəyliyə xidmət edən tədbirlərin gücləndirilməsinə çağırış etdi. Daim birləşdirici, sabitləşdirici mövqeyi ilə dünyanın diqqətində olan Azərbaycan bu müddətdə daxili tədbirləri ilə yanaşı, eyni zamanda, birliyə, həmrəyliyə xidmət edən təşəbbüslərini reallıqda təsdiqləməsi ilə diqqət çəkdi. Dövlətimizin başçısı İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının, həmçinin BMT Baş Assambleyasından sonra ikinci ən böyük beynəlxalq təsisat olan və 120 ölkəni sıralarında birləşdirən Qoşulmama Hərəkatının videokonfrans şəklində Zirvə görüşləri keçirildi, bu beynəlxalq tədbirlərdə dünyaya "COVID-19-a qarşı birlikdəyik" mesajı ünvanlandı.***

Bu kimi tədbirlər beynəlxalq səviyyədə Azərbaycana və Prezidentimiz İlham Əliyevə olan böyük inamın və etimadın göstəricisi kimi dəyərləndirildi. Bu gün bu sıraya cənab İlham Əliyevin BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi təşəbbüsü və ona verilən yüksək dəstək də daxil edilir". Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə deyib.

V.Rəhimzadə qeyd edib ki, bu təşəbbüslər, onların reallaşması, bu fonda yeni təşəbbüslərə yol açan addımlar, dünya dövlətləri tərəfindən verilən dəstək və sair kimi məqamlar göstərir ki, ölkəmiz koronavirus pandemiyası ilə bağlı formalaşan yeni reallıqlara, yaranmış vəziyyətə çevik və adekvat reaksiya verir. Azərbaycanın pandemiyaya qarşı mübarizə sahəsində nümunəvi ölkə kimi təşəbbüsləri təqdir olunur, həyata keçirdiyi tədbirlər yüksək dəyərləndirilir.

Baş redaktor bildirib ki, COVID-19 qlobal pandemiyası bütün dünya dövlətlərinin iqtisadiyyatına, xüsusilə insanların sağlamlığına mənfi təsir göstərir. Möhtərəm Prezidentimiz İlham Əliyev Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşündə bu reallığı diqqətə çatdırmışdır ki, yalnız qarşılıqlı dəstək, özünəqapanmama və birgə səylərlə COVID-19-a qalib gələ bilərik.

"Özünəqapanma təbii ki, heç bir dövlətə uğur gətirə bilməz. Səylərin birləşdirilməsi, birgə addımların atılması, təcrübə mübadiləsinin aparılması fonunda nəzərdə tutulan hədəfə yüksək səviyyədə nail olmaq mümkündür" söyləyən V.Rəhimzadə qeyd edib ki, Azərbaycanın ötən müddətdə Ümumdünya Səhiyyə Təşkilatına könüllü ianə ayırması və 30-dan artıq ölkəyə humanitar yardım göstərməsi də birliyin, həmrəyliyin genişləndirilməsində, ehtiyacı olan ölkələrə dəstəyin göstərilməsində nə qədər maraqlı olduğunu nümayiq etdirir.

Dövlətimizin başçısı İlham Əliyevin "Biz bunu etməyə də bilərdik. Kimsə bizə bir söz deyəcəkdi? Yox. Kim bizə irad tuta bilərdi ki, bu ağır dövrdə biz bu təşəbbüsü irəli sürməsəydik. Amma biz bunu etdik. Çünki biz məsuliyyətli ölkəyik və etibarlı tərəfdaşıq" fikirlərini önə çəkən V.Rəhimzadə vurğulayıb ki, Azərbaycan Qoşulmama Hərəkatının Zirvə görüşünün keçirilməsinə nail olmaqla iki əks qütbün - Avropa İttifaqı ilə Qoşulmama Hərəkatının koronavirus pandemiyasına qarşı bir araya gətirilməsinə müvəffəq oldu. Möhtərəm Prezidentimizin fikirlərinə istinad etsək, Azərbaycan dünyanı birləşdirir. Beynəlxalq təşkilatlar çərçivəsində irəli sürülmüş təşəbbüslər dünya birliyi tərəfindən birmənalı şəkildə yüksək qiymətləndirilir və təqdir edilir.

"Azərbaycan dövləti bu çağırışı da etdi ki, koronavirus pandemiyası qlobal təhlükə olduğu üçün qlobal cavab tələb edir. Nəzərə alsaq ki, Qoşulmama Hərəkatı Birləşmiş Millətlər Təşkilatına üzv olan dövlətlərin üçdəikisini özündə birləşdirir, bu halda hər bir ölkənin ortaya qoyduğu yanaşmanın mübarizənin müsbət sonluqla başa çatmasında rolunu aydın görərik" söyləyən baş redaktor vurğulayıb ki, amma bu günə kimi beynəlxalq münasibətlər sistemində BMT və onun əsas qurumları olan Baş Assambleya və Təhlükəsizlik Şurasının rolu görünmür, dünyanın aparıcı ölkələri qlobal liderlik əvəzinə geosiyasi rəqabət və özünütəcridə kökləniblər: "Böyük dövlətlər və beynəlxalq təşkilatlardan qlobal liderlik gözlənilsə də bu baş vermədi. Daha çox özünütəcrid, milli eqoizm xarakteri daşıyan addımlar atıldı. BMT Təhlükəsizlik Şurasının xüsusi iclaslarının çağırılması təşəbbüsü fikir ayrılığına görə baş tutmadı. BMT Baş Məclisi çərçivəsində bir neçə qətnamə layihəsi irəli sürülsə də onların da əksəriyyəti uğurla nəticələnmədi. Dövlətimizin başçısı İlham Əliyev Qoşulmama Hərəkatının videokonfras şəklində Zirvə görüşündə çıxışı zamanı qlobal həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə çıxış etdi".

V.Rəhimzadə bildirib ki, 130-a qədər BMT-nin üzv dövləti tərəfindən Qoşulmama Hərəkatının sədri statusunda Prezident İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünün dəstəklənməsi bir daha beynəlxalq birlik tərəfindən ölkəmizə olan böyük etimadın və hörmətin növbəti göstəricisidir: "Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan rolu və yeri göz qabağındadır. Daim ədalət meyarını öndə saxlayan, beynəlxalq hüququn norma və prinsiplərinə hörmətlə yanaşan Azərbaycan qlobal məsələlərin həllində öz dəstəyini göstərməyi xarici siyasətinin prioritet istiqaməti kimi qəbul edib. Əsas məqsəd regionda və dünyada sabitliyin, təhlükəsizliyin, yüksək rifahın təmin edilməsidir. Sülhün, əmin-amanlığın, insanların sağlamlığının qorunması fonunda qarşıya qoyulan hədəfləri gerçəkləşdirmək qaçılmazdır. Nəzərə alsaq ki, bu gün koronavirus təkcə insanların sağlamlığına deyil, ölkələrin iqtisadiyyatına böyük təhdiddir, statistikaya müraciət etdikdə vurulan ziyanın həcminin nə qədər böyük olduğu aydın görünür. Məhz birliyin, həmrəyliyin formalaşdırılması, hər bir ölkənin malik olduğu təcrübəni paylaşması, maddi və mənəvi dəstəyin göstərilməsi əsasında qarşıdakı dövrə nikbin baxmaq, bu yönümdə fədakarlıq göstərmək olar".

Baş redaktor bu məqamı xüsusi qeyd edib ki, təşəbbüsə qarşı çıxan yeganə dövlət Ermənistan olub: "Hər bir məsələdə seyrçi mövqedə dayanmağa üstünlük verən işğalçı dövlətin sağlamlığa böyük zərbə vuran bir xəstəliyə qarşı mübarizəyə də qoşulmaması dünya dövlətləri tərəfindən lazımi şəkildə dəyərdəndirilməyəcəksə, bu, artıq Ermənistanın başına sığal çəkilməsinin növbəti təzahürü kimi qəbul oluna bilər. Bu baxımdan ki, işğalçı dövlət qlobal xarakter daşıyan bu təşəbbüsə qarşı çıxış etməklə BMT sistemində və dünya dövlətləri arasında özünü rüsvay edir. Bu günə qədər BMT Təhlükəsizlik Şurasının qərar və qətnamələrinə məhəl qoymayan və buna görə ona "gözün üstə qaşın var" deyilməməsi təcavüzkar dövlətdə böyük arxayınlıq yaradır. Hansı ki, hazırda pandemiyanın ağır nəticələrini daha çox hiss edən ölkələrdən biri bu işğalçı dövlətdir. Hər an özünə maddi və mənəvi dəstəyi hiss etməsi bu ölkədə pandemiyaya qarşı mübarizəyə qoşulsa da qoşulmasa da, bu qayğını görəcəyinə arxayınlıq yaradır. Pandemiyaya qarşı mübarizə iki əks qütbü- Avropa İttifaqını və Qoşulmama Hərəkatını bir araya gətirdi, amma Ermənistana təsir etmək imkanında olmadısa, buna artıq şərh vermək mümkün deyil".

Vüqar Rəhimzadə bildirib ki, ümumilikdə Azərbaycan Prezidentinin təşəbbüsünü dəstəkləyən ölkələr dünyanın bütün regionlarını əhatə edir: "Onlar arasında BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən tutmuş kiçik ada ölkələrinə qədər vardır. Azərbaycanın 130 ölkənin dəstəyini qazanan bu təşəbbüsü bir daha ölkəmizə olan münasibəti, etimadı ortaya qoyur. Siyasətində müstəqil olan, təbliğatı real faktlara əsaslanan, atdığı hər addımında dövlət maraqlarını öndə saxlayan bir dövlətə beynəlxalq səviyyədə dəstək qaçılmaz olacaq. Azərbaycan daim böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı hörmət və maraqlar prinsipi əsasında əməkdaşlıq əlaqələri qurur, bu münasibətləri yeni-yeni istiqamətlər üzrə inkişaf etdirir. Dünya dövlətləri tərəfindən BMT Baş katibinə ünvanlanan məktublarda da möhtərəm Prezidentimiz İlham Əliyevin Baş Assambleyanın xüsusi sessiyasının keçirilməsi ilə bağlı təşəbbüsü dəstəklənir və vaxtında verilmiş, çox ehtiyac duyulan addım kimi dəyərləndirilir.

Baş redaktor qeyd edib ki, pandemiyanın dünyanı geniş şəkildə bürüdüyü və hətta bəzi ölkələrdə ikinci dalğası yaşandığı indiki dövrdə həmrəyliyə və əməkdaşlığa böyük ehtiyacın olduğu özünü qabarıq şəkildə büruzə verir: "BMT Baş Assambleyası çərçivəsində belə bir qlobal problemin müzakirəyə çıxarılması, vahid yanaşma modelinin ortaya qoyulması vacibdir. Hər bir məsələdə fəal mövqedən çıxış edən Azərbaycan dövləti, möhtərəm Prezidentimiz İlham Əliyev bu inamı da səslendirir ki, görülən tədbirlər mübarizədən az itki ilə çıxmağımıza əsas yaradır. Azərbaycan pandemiyaya qarşı mübarizədə ilk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı ilə səmərəli əməkdaşlıq edir. Məhz bu birlik, əməkdaşlıq sayəsində görülən işlər daim qurumun rəsmiləri tərəfindən önə çəkilir.

"Göründüyü kimi, Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə həm ölkə daxilində, həm də dünyada öz fəal rolunu artırmaqdadır. Ölkəmiz öz təşəbbüsləri, praktiki addımları ilə dünyada həmrəyliyin möhkəmlənməsinə, indiki mürəkkəb şəraitdə dövlətlər və xalqlar arasında əlaqələrin inkişafına, qlobal koronavirus pandemiyası ilə mübarizədə bütün səylərin səfərbər olmasına töhfələrinin davamlılığı ilə diqqət çəkir" söyləyən V.Rəhimzadə qeyd edib ki, dövlətimizin başçısının davamlı təşəbbüsləri və bu təşəbbüslərin reallıqda öz əksini tapması bunu bir daha təsdiqləyir. COVID-19-a qarşı mübarizəyə birgə cavabın axtarılması virusun sürətlə yayılmasından, onun növbəti dalğalarının yaşanmasından ciddi narahatlığın aydın mənzərəsini yaradır. Azərbaycan Prezidenti tərəfindən Birləşmiş Millətlər Təşkilatının üzv dövlətlərinə milli, regional və beynəlxalq səviyyələrdə bu ümumbəşəri bəlaya qarşı mübarizə aparmaq istiqamətində əməkdaşlıqlarını möhkəmləndirməyə çağırış edilməsi təbii ki, dünyanı ciddi düşündürməli, artıq ədalətin, haqqın, ən əsası beynəlxalq hüququn norma və prinsiplərinin tətbiqi mexanizminin müəyyənləşdirilməsinin zamanı çatdığına bir işarə olmalıdır.

Baş redaktor diqqəti Qoşulmama Hərəkatının videoformatda keçirilən konfransında BMT-nin Baş katibi Antonio Quterreşin videomüraciətində əksini tapan fikirlərə yönəldib. Qeyd edib ki, Azərbaycanın təşəbbüslərini yüksək dəyərləndirən BMT-nin Baş katibi bildirmişdir ki, burada yeganə cavab cəsarətli, uzaqgörən və əməkdaşlığa əsaslanan rəhbərlik keyfiyyətləridir. Bu böhranın miqyası və mürəkkəbliyi əlaqələndirilmiş qlobal cavab tədbirlərini tələb edir. Biz COVID-19-a səmərəli cavab tədbirlərinin hər kəs üçün və hər yerdə əlçatan olmasını və bərabərliyi təmin etməliyik. Videomüraciətdə pandemiyaya qarşı mübarizəyə ciddi əməli töhfələr verən Prezident İlham Əliyevin fəaliyyəti təqdir edilərək Azərbaycandan ünvanlanan birlik, həmrəylik çağırışlarının ölkəmizin beynəlxalq aləmdə nüfuzunun göstəricisi kimi qeyd olunmuşdur.

***Ceyhun Rasimoğlu***

# "Bu, Azərbaycan diplomatiyasının növbəti uğurudur"

"Bütün dünya ölkələrinin COVID-19-a qarşı mübarizədə birləşdiyi bir zamanda, Azərbaycanın dünyaya sülh mesajı verdiyi bir məqamda Ermənistan, bu təşəbbüsün əleyhinə çıxaraq özünün biabır edərcəsinə seperatçı hakimiyyət üzərində qurulmuş bir dövlət olduqlarını bütün dünyaya nümayiş etdirdi". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Gənclər və idman komitəsinin üzvü olan deputatı Cavid Osmanov deyib.



O bildirib ki, 2020-ci ilin may ayının 4-də Prezident İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi və onun təşəbbüsü ilə 40-dan çox ölkənin dövlət və hökumət başçılarının iştirakı ilə Qoşulmama Hərəkatının Təmas Xətti formatında videokonfransı keçirilmiş və bu videokonfrans bütün dünyanı narahat edən COVID-19-a qarşı birgə mübarizə tədbirləri ilə bağlı olmuşdur: "Tədbir "COVID-19-a qarşı birlikdəyik" mövzusu çərçivəsində həyata kerçirilmişdir. Bu, Prezident İlham Əliyevin COVID-19-a qarşı mübarizədə beynəlxalq aləmdə ilk təşəbbüsü deyildi. Ölkə rəhbərinin ilk təşəbbüsü və dünyada da ilk olaraq Türkdilli Dövlətlərin Əməkdaşlığı Şurasının Zirvə görüşü çərçivəsində edilmişdir. Qoşulmama Hərəkatının Təmas Xətti formatında həyata keçirilən videokonfransında da Prezident İlham Əliyev növbəti bir təşəbbüslə çıxış etmiş və BMT-nin Baş Assambleyasının xüsusi sessiyasının çağırılması ilə bağlı çağırış etmişdir. Çox qürurverici bir haldır ki, bu günə qədər 130-a qədər ölkə rəhbəri təşəbbüsü yüksək qiymətləndirmiş və dəstəkləmişdir. Bu, Azərbaycana və ölkə Prezidenti İlham Əliyevə olan böyük hörmətin və etimadın təzahürü kimi qiymətləndirilir".

Millət vəkili vurğulayıb ki, ölkə Prezidenti hələ ötən ilin oktyabr ayında Bakıda keçirilən Qoşulmama Hərəkatının Zirvə görüşündə sədrliyi öz üzərinə götürərkən bəyan etmişdir ki, Qoşulmama Hərəkatının nüfuzunu daha da artırmaq üçün əlindən gələni edəcək və bu təşəbbüs də Qoşulmama Hərəkatının sədri kimi birbaşa onun nüfuzunun artırılmasına, eyni zamanda, Azərbaycanın beynəlxalq siyasətdə, diplomatiyada növbəti uğuru kimi qiymətləndirilir: "Təbii ki, bu, siyasi baxımdan Azərbaycan üçün çox vacib bir məsələ idi. Bu, beynəlxalq aləmdə və siyasətdə növbəti uğurumuzdur. Azərbaycanın COVID-19-a qarşı mübarizə tədbirlərində təkcə milli ruhda deyil, regional və xüsusilə də qlobal ruhda da iştiraki bir daha bütün dünya ölkələri tərəfindən tanınacaq. Bu günə qədər COVID-19-a qarşı mübarizə tədbirləri çərçivəsində ölkəmiz 30-a qədər ölkəyə müxtəlif humanitar yardımlar göndərmişdir. Həmçinin, 2 dəfə Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar dəstək ayrılmışdır. Bu da Azərbaycanın qüdrətindən və iqtisadi gücündən xəbər verir".

# "Mötəbər tədbirin Prezidentin təşəbbüsü ilə keçirilməsi ölkəmizin nüfuzundan xəbər verir"



"Bu gün dünya qlobal təhlükə olan COVID-19 pandemiyası ilə mübarizə aparır. Virusa qarşı mübarizə artıq dünyanın birləşərək qüvvələri səfərbər etməsini tələb edir. Hər gün müxtəlif ölkələrdən virusa yoluxanların, vəfat edənlərin sayı haqqında açıqlanan dəhşətli statistikanın şahidi oluruq. Hazırda hər bir dövlət pandemiya ilə mübarizə aparır və əhalini yaranmış ağır vəziyyətdən minimum itkilərlə çıxarmaq üçün mümkün variantlardan istifadə etməyə çalışır". Bunu SİA-ya millət vəkili Anar Məmmədov deyib.

Deputatın sözlərinə görə, bəşəriyyətin bu vəziyyətdən çıxmasının ən əsas şərtlərindən biri isə birlik və həmrəylikdir: "Hətta BMT müstəvisində qaldırılan məsələlərdən biri odur ki, belə bir şəraitdə müharibələr dayandırılsın. Bu artıq bəşər insanın II Dünya müharibəsindən sonra ikinci dəfə belə ağır vəziyyətə düşdüyünün göstəricisidir. Təbii ki belə çətin vəziyyətdə pandemiya ilə mübarizədə ümumi düşmənə qarşı bir dövlətin yox, bütün ölkələrin, çevik tədbirlər alması zəruri hal alır. Qlobal humanitar fəlakətdən və iqtisadi böhrandan qaçmağın yeganə yolu isə ölkələrin vaxt itirmədən pandemiyaya qarşı birgə və effektli addımlar atması, "Yol xəritəsi" tapmasıdır. Çünki məhz qlobal əməkdaşlıq və birgə səyləri birləşdirməklə bu virusa qarşı qalib gəlmək mümkün olacaqdır. Bu mənada Azərbaycanın öncüllüyü diqqəti çəkir.

İlk addım olaraq Türk Dilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans formatında keçirilən Zirvə görüşü COVİD-19 pandemiyası ilə mübarizədə beynəlxalq və regional əməkdaşlığa ilk və ciddi çağırış oldu. Zirvə görüşünə qatılan dövlət başçıları Azərbaycan Prezidentinin bu təşəbbüsünü və liderliyini yüksək qiymətləndirdilər. COVİD-19 pandemiyasına qarşı mübarizədə ölkəmiz əldə etdiyi təcrübəni dünya birliyi ilə paylaşmağa hazır olduğunu bəyan etməklə humanizm, həmrəylik, birgəyaşayış, birlik və bərabərlik mesajlarını verdi.

Bunun davamı olaraq mayın 4-də Qoşulmama Hərəkatının sədri Prezident İlham Əliyevin təşəbbüsü ilə Hərəkatın Təmas qrupunun videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş Zirvə görüşü keçirildi. Qırxdan çox üzv ölkənin dövlət və hökumət rəhbərləri, eləcə də nüfuzlu şəxslərin qatıldığı videokonfransda əsas mövzu pandemiyaya qarşı birgə mübarizə aparmaq və beynəlxalq səyləri gücləndirməkdən ibarət idi. Məhz belə bir mötəbər tədbirin Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə keçirilməsi ölkəmizin dünyada artan rolundan xəbər verir.

Prezident İlham Əliyev COVİD - 19 qlobal pandemiyasının bütün dünya dövlətlərinə mənfi təsir göstərdiyini, heç bir ölkənin bundan sığortalanmadığını, ancaq qarşılıqlı dəstək, özünəqapanmama və yalnız birgə səyləri birləşdirərək, dünya birliyinin birgə mübarizəsi sayəsində COVİD-19-a qalib gəlməyin mümkünlüyünü diqqətə çatdırdı. Bu fakt xüsusi olaraq vurğulanmalıdır ki, hazırda insanpərvərliyə, humanizmə, xeyirxahlığa, qlobal liderliyə ehtiyac duyulduğu bir şəraitdə və vaxtda Prezident İlham Əliyev Zirvə görüşünün keçirilməsi ilə bağlı təşəbbüs irəli sürərək "özünəqapanma sindromu"nun heç kəsə xeyir gətirməyəcəyini nümayiş etdirdi və dünyanın ayrı-ayrı qitələrindən müxtəlif siyasi və ideoloji quruluşlara malik ölkələrini bir araya gətirməyə nail oldu. Eyni zamanda Azərbaycan Respublikası COVİD-19-a qarşı mübarizədə qlobal həmrəyliyin nümunəsi kimi Ümumdünya Səhiyyə Təşkilatına könüllü ianə ayırmış, 30-dan artıq dövlətə humanitar yardım vermişdir.

Qoşulmama Hərəkatının Təmas Qrupunun videokonfransı bir daha sübut etdi ki, Azərbaycan nəinki milli səviyyədə COVID-19-la mübarizədə səmərəli tədbirlər görür, eyni zamanda, regional və qlobal miqyasda da koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə özünün mühüm töhfəsini verir. Həmçinin zirvə görüşündə bu qədər ölkənin iştirakı, BMT-nin baş katibinin belə bir görüşə görə ölkə başçısına təşəkkürü Azərbaycan Prezidentinin şəxsi nüfuzunun, siyasi təcrübəsi və uğurlu siyasətinin nəticəsi, qəbul olunmuş bəyannamədə dəyərli və vaxtında irəli sürülmüş təşəbbüsə görə Prezidentimizə təşəkkürün öz əksini tapması bunun bariz göstəricisidir. Azərbaycan bir daha təsdiq etdi ki, quruma sədrliyi öz üzərinə götürərkən beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacağına, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacağına dair vədlərinə qətiyyətlə əməl edir. Bu gün 130-a qədər BMT üzv dövləti tərəfindən Qoşulmama Hərəkatının sədri statusunda Prezident İlham Əliyevin BMT Baş Assambleyasının Xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünün dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük etimadın və hörmətin növbəti göstəricisidir."

# "Ermənistan işğal edilmiş torpaqları tərk etməyə məcbur ediləcək"



"Azərbaycanın dövlət başçısı Prezident İlham Əliyevin Qoşulmama Hərəkatı ölkələri adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyanın keçirilməsi təklifi aktualdır və yerindədir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin İctimai birliklər və dini qurumlarkomitəsinin üzvü olan deputatı Anar İsgəndərov deyib. Millət vəkili bildirib ki, bu təşəbbüs Azərbaycan dövlətinin nüfuzunu və gücünü göstərir və 130-a qədər dövlət həmin təklifi dəstəkləyirsə, bu, Azərbaycanın dövlət başçısına olan hörmət və ehtiramın nümunəsidir: "Bu, ərazicə kiçik olmasına baxmayaraq Azərbaycan dövlətinin beynəlxalq nüfuzunu göstərən bir ölçüdür. Bu baxımdan mənə elə gəlir ki, hazırda bütün dünya üçün fəlakət və ağrılı hadisə koronavirus pandemiyasıdır. Azərbaycanın dövlət başçısı Prezident İlham Əliyev bu tövsiyyəsi, məsləhəti və təklifi ilə təkcə Azərbaycan xalqını yox, ümumiyyətlə, bəşəriyyəti düşünən bir dövlət başçısı olduğunu əyani surətdə göstərdi. Düşünürəm ki, bu təklif uğurla nəticələnəcək. Eyni zamanda Azərbaycana və Azərbaycan dövlətinə qarşı, təbii ki, başda Ermənistan olmaqla, bədxah münasibətdə olan dövlətlərin də iç üzü açılacaq".

Anar İsgəndərov bildirib ki, bu mənada dövlət başçısının təklifini təqdirəlaqyiq hesab edir və əminliklə vurğulayır ki, bu kimi tədbirlər son nəticədə Azərbaycanın uğuruna gətirib çıxaracaq: "Azərbaycanın uğuru dedikdə nə nəzərdə tutulur? Söhbət təbii ki, işğal olunmuş ərazilərimizdən gedir. Nə qədər ki, Azərbaycanın işğal altında olan torpaqları var, nə qədər ki, dünya birliyi hələ də müəyyən məsələlərdə Ermənistanı müdafiə edir, Azərbaycan da bu istiqamətdə öz siyasi aktivliyini güclü bir şəkildə davam etdirəcək. Bu kimi təkliflərlə Azərbaycanın nüfuzunu dünyaya bəyan etməklə, əsl tarixi həqiqət, dünya həqiqəti ortaya çıxacaq. Bununla da Ermənistan Azərbaycanın gücü hesabına işğal edilmiş torpaqları tərk etməyə məcbur ediləcək".

*Nigar Məmmədova*

# ABŞ-da silahlı şəxs polisə atəş açıb




ABŞ-ın Oklahoma ştatının Talsa şəhərində silahlı şəxs polis işçilərinə atəş açıb, iki zabitin vəziyyəti ağırdır. "Report" xəbər verir ki, bu barədə Talsa Polis İdarəsi məlumat yayıb. Şübhəli hadisə yerindən qaçıb. İndi o, axtarışdadır.

# İki avtomobil toqquşub, ölən var



Sabirabad rayonunun Poladtuğay kəndi ərazisində yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, iyunun 28-də saat 11 radələrində Sabirabad rayonunun Poladtuğay kəndi ərazisində kənd sakini Şamxal Əsgərovun idarə etdiyi "VAZ-2107" və Salyan rayon sakini H.Nəcəfovun idarə etdiyi "Ford" markalı avtomobillər toqquşub. Nəticədə Ş.Əsgərov xəstəxanaya aparılarkən yolda ölüb. Sabirabad RPŞ tərəfindən araşdırma aparılır.

# Avtomobildən 4050 manat oğurluq edildi



Abşeron rayonu ərazisində avtomobildən 4050 manat oğurlamaqda şübhəli bilinən şəxslər saxlanılıblar. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Abşeron RPİ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyunun 26-da rayon ərazisində "Hyundai" markalı avtomobildən 4050 manat oğurlamaqda şübhəli bilinənlər - Bakı şəhər sakinləri S.Nuruşov, əvvəllər məhkum olunmuşlar - R.Quliyev və A.Dərvişov saxlanılıblar.

# Azərbaycan pandemiya ilə mübarizə aparan ölkələr arasında biricilərdəndir

***"Çox böyük təəssüf hissi ilə qeyd etmək istərdim ki, müasir dünyamız obyektiv və subyektiv səbəblərdən çoxsaylı təbii və qeyri-təbii fəlakətlər, münaqişələr, miqyası və nəticələri ölçüyə gəlməyəcək təhlükələrlə üzləşir. Təbii ki, bu təhlükələrin ən böyük zərbəsini və ağır nəticələrini məhz insanlar yaşayır". Bu fikirləri SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının baş məsləhətçisi Kubra Əliyarlı deyib.***



Onun sözlərinə görə, iqtisadiyyatın, sənayenin, kənd təsərrüfatının və digər sahələrin üzləşdiyi problemlər bir başa insan amilinə təsir edir. Nəticədə yenə zərərçəkən, ağır vəziyyətlərlə üz-üzə qalan bəşər insanı olur: "Ancaq ən dəhşətli mənzərə isə onda yaranır ki, baş verən təhlükələr birbaşa insanların sağlamlığına ağır zərbələr vursun, onun təhlükəsizliyini təhdid altına alsın. Bu cür insan amilinə təsiri ilə yaddaqalan, həyatımızın müxtəlif illərində rast gəlinən dəhşətli problemlərin bəzilərinin mənəvi, psixoloji mənfi nəticələri hələ də özünü göstərməkdədir. Ümumiyyətlə, insan yarandığı gündən, Allahın onu xəlq etdiyi vaxtdan daim ciddi sınaqlarla üzləşir, müxtəlif təhlükələrin fonunda ölüm-qalım savaşı verir, qətiyyətli mübarizələri ilə yadda qalır. Təbii ki, insanların, iradəsindən, qətiyyətindən, məsuliyyətindən, sağlamlıq imkanlarından asılı olaraq ölüm-qalım savaşı ya insan övladının xeyrinə, ya da çox təəssüflər olsun ki, ziyanına yekunlaşır. Müxtəlif dövrlər üçün eşitdiyim, oxuduğum və əldə etdiyim məlumatlara əsasən çoxsaylı virusların yol açdığı, insan həyatına ciddi və qarşısıalınmaz xətərlər toxunduran xəstəliklər ortaya çıxıb. Maraqlıdır ki, dövrünün alimləri, tibb işçiləri, hətta siyasi şəxsiyyətlərinin belə araşdırmaları və açıqlamaları bu qəbildən olan xəstəliklərin tam mənbəyini, yaranma səbəblərini ətraflı və dolğun informasiyalarla ya əldə etmək mümkün olmur, ya da bu barədə insanlara məlumatlar az sayda ötürülür. Hətta bəzi araşdırmalar hər yüz ildən bir müxtəlif yoluxucu virus xəstəliyinin peyd olaraq yüz minlərlə insanın həyatı ilə vidalaşmağa səbəb olduğunu deyir".

Təəssüflər olsun ki, 2019-cu ilin sonlarından başlayaraq dünya daha bir belə ağır xəstəliklə, virus infeksiyası ilə üz-üzə gəlməli oldu. Heç bir ölkənin, heç bir kəsin gözləmədiyi anda meydana gələn, qəfil, çağırılmamış qonaq missiyasında olan bu virus qısa bir vaxt ərzində sərhədləri aşaraq bütün dünyanı cənginə aldı. K.Əliyarlı "sanki dünya və bu dünyanın sakinləri gözlənilmədən, bir andaca ən ağır, qatı burulğanın içərisinə yuvarlandı", deyərək bildirib ki, hər kəsin təəccübü, təəssüfü bir anlıq daha da böyüyüərək ölüm qorxusu ilə əvəzləndi. Bəlkə də ölümün bu qədər yaxın və ani olacağını heç bir kəs təsəvvür belə etməzdi. Ancaq bu virus bu təsəvvürsüzlüyü tamamilə aradan qaldıraraq, insanları buna alışdırdı. Bu xəstəliklə baş-başa buraxdı: "Dünyanın ən inkişaf etmiş ölkələrindən biri, əhali sayına görə lider dövləti olan Çində meydana gəlməsi isə məsələyə xüsusi maraqlı aspektlədən yanaşmağı tələb etdi. Niyə məhz Çin?! Həqiqətənmi bu virusa səbəb oradakı hansısa bir kəsin yarasa ətini yeməsi olub?! Çinin Uhan şəhərində ilk dəfə meydana gələn, öz fərqli adı və imici ilə dünyada haqqında bəhs edilməyi bacaran, artıq aylarladır gündəmi zəbt edən bu "koronavirus"un bu növünə "Covid-19" adı verildi. Bütün xəstəliklərin, virusların ən qısa müddətdə və daha intensiv yayılmasına səbəb olan havadamcı yolu ilə yoluxma ehtimalı isə xəstəliyin yayılma arealını daha da dəhşətli etdi. Bir andaca bütün dünya bu virusun cənginə düşdü. İnkişafetmə səviyyəsindən asılı olmayaraq Amerika Birləşmiş Ştatları, ən inkişaf etmiş Avropa dövlətləri, digər ölkələr bu virusla mübarizəyə bütün güclərini verməsinə baxamayaraq məğlub oldular. Belə ki, virus milyonlarla insanın yoluxmasına, yüz minlərlə insanın ölümünə səbəb oldu və hələ də səbəb olmağa davam edir".

Ümumdünya Səhiyyə Təşkilatı və dünya dövlətləri düşdükləri bu çətin və ağır vəziyyətdən çıxmaq haqqında ciddi-ciddi düşünməyə, müxtəlif çarələr tapmağa çalışdılar. Bütün ölkələr öz sərhəd qapılarını bağlamaqla digər ölkələr və millətlərlə əlaqələrini kəsməyə qərar verdi. Çünki virus insandan-insana yayılmaqla bütün sərhədləri aşmağa başlamış, bununla da insan həyatına daha da dəhşətli itkilərin olacağını şübhəsiz etmişdir. Sosial izolyasiya tədbirləri, özünütəcrid isə bu mübarizədə ən optimal variantlardan biri hesab olunurdu. Müxtəlif qoruyucu tibbi vasitələrdən istifadə etməklə və dezinfeksiyaedici məhsullardan istifadə etməklə sosial məsafəni qorumağa başladılar. Gördülər ki, bu da olmur, virus artıq gözəgörünməz kabus kimi bütün insanların qəsdinə duracaq, hər kəsi öz evinə "həbs" etməyə məcbur oldular. "Evdə qal. Sağlam qal" şüarı bir andaca bütün dünyanın səsləndirdiyi qurtuluşa gedən yolda ən əhəmiyyətli maarifləndirici şüar oldu. Lakin görülən bütün önləyici tədbirlərə baxmayara virus öz işində idi.

K.Əliyarlı fikrinə davam edərək diqqətə catdıdı ki, xəstəlik haqqında - onun mənbəyi, inkişafı, yayılması, statistikası, müxtəlif dünya dövlətlərinin reaksiyaları, vaxtından tez və ya gec tədbirlər görməyə başlayan ölkələrin acı və çox acı taleləri, virusun iqtisadiyyata, sənayeyə, neft sektoruna və s. vurduğu zərbələrdən danışmaqla bitməz: "Əsasən ahıl insanların ölümünə səbəb olması, uşaqların və gənc insanların daşıyıcı olmasına baxmayaraq immunitet yüksəkliyi səbəbindən ölüm səviyyəsinin nəzərəçarpacaq qədər aşağı səviyyəsində olması, ümumiyyətlə heyvanların ölümünə səbəb olmaması və s. haqqında çox danışmaq olar. Sözsüz ki, tarixin ağır sınaqlarından, ciddi təcrübələrindən çıxmış, miqyasa gəlməyəcək kəşflərə, ixtiralara imza atmış və atmaqda davam edən insan övladının bir virus qarşısında aciz qalacağını heç kəs təsəvvür etməzdi. Lakin sevindirici haldır ki, Azərbaycan dövləti "Covid-19" koronavirus pandemiyasına qarşı dərhal və təxirəsalınmaz mübarizə aparan və müvafiq tədbirlər görən ölkələr içərisində ən biricilərdəndir. Belə ki, virusun yayılmağa başladığı vaxtdan dövlət başçısı Cənab İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə Nazirlər Kabineti yanında Operatov Qərargah yaradıldı. Vəziyyətin tam nəzarətə götürülməsi, təhlil edilməsi, müvafiq araşdırmaların nəticələrinin, mövcud vəziyyətin düzgün analiz edilməsi, adekvat mübarizə tədbirlərinin görülməsi, pandemiyanın nəticələrinin minimuma endirilməsi məqsədilə bütün məsələlər Operativ Qərargah tərəfindən icra olunmağa başlanıldı. Digər tərəfdən pandemiyanın təsir etdiyi bütün digər fəaliyyət sahələri üzrə, səhiyyə, təhsil, nəqliyyat, kənd təsərrüfatı və digər aididiyyatı dövlət qurumları operativ qərargahın tapşırıq və tövsiyyələrinə uyğun olaraq paralel və əlaqəli fəaliyyət göstərməyə, müvafiq təhlillər verməyə başladılar. İşlərin sistemli və müvafiq qrafk üzrə aparılması, operativliyin təmin edilməsi cəmiyyət arasında narahatlığa səbəb olmadan daha etibarlı mübarizənin təmin edilməsinə əsaslı inamlar yarandı. Ölkə Prezidenti Cənab İlham Əliyevin uzaqgörən siyasəti və islahatları sayəsində yoluxmanın minimuma endirilməsi, xaricdən yoluxan insanların ölkəmizə keçməsinin qarşısının tam və vaxtında alınması məqsədilə ölkəmizin xarici ölkələrlə bütün dövlət sərhədləri dərhal qapadıldı. Təbii ki, bununla yanaşı, dünyanın dörd bir yerində yaşayan, işləyən, təhsil alan vətəndaşlarımız, soydaşlarımız yaddan çıxarılmadı. Onlarla müvafiq səfirlik və konsulluqlarımız vasitəsilə əlaqə saxlanılaraq onların Vətənimizə qayıtması işləri həyata keçirildi. Xarici ölkələrdən Azərbaycana daxil olan soydaşlarımızın, eləcə də yerli vətəndaşlarımızın virusdan qorunması üçün karatin üçün ayrılmış xüsusi yerlərə yerləşdirilərək hər cür şəraitlə təmin edildilər. Karantin üçün Bakıda Atletlər kəndi adlanan ərazi, müxtəlif guşəli, şəraiti yüksək otellərimiz və s. vətəndaşlarımızın istifadəsinə verildi. Müvafiq karantin qaydalarını başa vuran soydaşlarmız xəstəlik aşkarlanmadığı təqdirdə öz evlərinə, ailələrinin yanına buraxıldı. Xəstəlik aşkar edilən soydaşlarımız isə virusla mübarizə tədbirləri çərçivəsində hazır vəziyyətə gətirilmiş, xüsusi təyinatlı xəstəxanalara, tibb müəssisələrinə yerləşdirildilər. Bütün bunlar dövlətimizin bu istiqamətdə gördüyü işlərin cüzi bir hissəsidir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 19 mart 2020-ci il tarixli "Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanına əsasən Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı. İlkin olaraq həmin fonda dövlət büdcəsindən 20 milyon manat ayrıldı. Fonda daxil olan vəsaitlərin xərclənməsinə nəzarət üçün fonda Nəzarət Şurası yaradıldı. Bütün bunlarla yanaşı, çoxsaylı sosial izolyasiya tədbirləri həyata keçirilməyə başlanıldı. Təlim-tədris prosesi dayandırıldı. İctimaiyyətin daha çox istifadə etdiyi, kütləvi məkanların - kafe, restoran, çayxana, şadlıq sarayları, mall-lar, ticarət məkanları, gözəllik salonları, bərbərxanalar, idman salonları və s. fəaliyyətləri dayandırıldı. Bir sıra dövlət qurumlarının bəzi rəhbər şəxsləri istisna olmaqla əməkdaşlarının əmək haqları saxlanılmaqla işçilər bir aylıq əmək məzuniyyətinə göndərildilər.

Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən insanların sosial izolyasiya tədbirlərinə məsuliyyətlə əməl etmələri və ciddi zərurət olmadan evdən çıxmalarının qarşısının alınması məqsədilə ilə "SMS icazə" tətbiq edilməyə başlanıldı. Artıq hər bir vətəndaş gün ərzində ciddi zərurət olarsa, yəni səhiyyə xidmətindən istifadəyə, qida və ya digər gündəlik zəruri tələbatlarını ödəmək və ya yaxınlarının dəfn mərasimində iştirak etmək məqsədilə əvvəlcədən müəyyən edilmiş nömrəyə "sms"göndərərik bir neçə saat ərzində çıxa bilərdi.

Xüsusi qeyd etmək lazımdır ki, qoruyucu geyimlərlə və maskalarla bağlı tələbatın tam ödənilməsi, bu sahədə çatışmazlıqların olmaması səbəbi ilə dövlət başçıs Cənab İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın açılışlarında iştirak etdikləri Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsalı müəssisəsi, Sumqayıtda "Gilan Tekstil Park" Məhdud Məsuliyyətli Cəmiyyətinin tibbi maska fabrikinin və tikiş fabrikinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsi istifadəyə verildi. Prezident Cənab İlham Əliyevin Sərəncamına uyğun olaraq hər birində 200 çarpayı olan altı modul tipli xəstəxananın quraşdırılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsindən 14,8 milyon manat vəsait ayrıldı. Mayın 7-də Bakıda modul tipli ilk xəstəxana kompleksinin açılışı oldu. Azərbaycan dövləti Ümumdünya Səhiyyə Təşkilatına pandemiya ilə qlobal səviyyədə mübarizə tədbirləri çərçivəsində görülən işlərə dəstək verməк məqsədilə ümumilikdə 10 milyon dollar məbləğində vəsait ayırdı. Təşkilatın baş direktoru ölkə Prezidentinə məktub ünvanlayaraq pandemiya ilə mübarizə tədbirləri çərçivəsində görülən işlərə, verdiyi dəstəyə görə təşəkkürünü bildirib və ölkəmizin sistemi fəaliyyətini yüksək qiymətləndirib. Həmçinin dövlətimiz pandemiya dövründə aidiyyatı beynəlxalq təşkilatlar və dünya dövlətləri ilə əlaqəli şəkildə birgə fəaliyyət göstərərək qarşılıqlı təcrübə mübadilələrinin aparılmasında maraqlı oldu. Təbii ki, bu siyasi startegiyanın müsbət nəticələri özünü göstərməkdədir. Hazırda statistik nəticələrə və bu nəticələrin dünyanın ən inkişaf etmiş ölkələri ilə müqayisəli təhlilinə nəzər salsaq görülən işlərin və atılan addımların əhəmiyyəti barədə sevindirici qənaətə gələ bilərik.

Sonda vurğulamaq istərdim ki, dövlətin ayrı-ayrı qurumları, Heydər Əliyev Fondu, müxtəlif özəl təşkilatlar, ictimai birliklər, fərdi xeyriyyəçi şəxslər və s. tərəfindən aztəminatlı, ahıl insanlara ərzaq, tibbi qoruyucu məhsullardan ibarət çoxsaylı yardımlar paylanıldı. Bu ağır günlərdə də xalqımız öz birliyini, həmrəyliyini bir daha nümayiş etdirmiş oldu. Ümid edirəm ki, ölkəmiz və bütün dünya bu sınaqdan üzüağ çıxacaq, bu təhlükə tamamilə aradan qalxacaq. Dünyamız sülh, əmin-amanlıq, insanlarımız xoşbəxt, firavan və təhlükəsiz günlərinə qayıdacaq"".

***Zümrüd BAYRAMOVA***



## Azərbaycan Türkiyənin qaz alışında liderliyini qoruyub

Bu ilin aprel ayında Türkiyə Azərbaycandan 916,57 mln kubmetr həcmində təbii qaz idxal edib. "Report" xəbər verir ki, bu barədə Türkiyənin Enerji Bazarını Tənzimləmə Qurumunun (Enerji Piyasası Düzenleme Kurumu - EPDK) hesabatında qeyd olunub. Bu göstərici ötən ilin aprel ayından 26,44% çoxdur. Türkiyənin ümumi qaz idxalında Azərbaycan yenə də ilk yerdə olub.

Hesabat ayında Türkiyə ümumilikdə 2,633 mlrd kubmetr həcmində qaz idxal edib. Bu həcmin 1,247 mlrd kubmetri LNG, 1,386 mlrd kubmetri boru kəmərləri vasitəsilə nəql edilən qaz olub. Türkiyə idxalında boru kəmərləri ilə nəql edilən qazın həcmini 51,5% azaldıb, LNG qazını isə 1,8 dəfə artırıb. Türkiyənin qaz idxalında ikinci yerdə Rusiya, üçüncü yerdə Əlcəzair, dördüncü yerdə isə ABŞ qərarlaşıb.

Qeyd edək ki, Türkiyəyə Azərbaycanın "Şahdəniz" yatağından hasil edilən təbii qaz nəql edilir. Təbii qaz həcmləri Cənubi Qafqaz Boru Kəməri (Bakı-Tbilisi-Ərzurum) və Trans-Anadolu Qaz Kəməri (TANAP) vasitəsilə Türkiyə bazarına çatdırılır. Bakı-Tbilisi-Ərzurum kəməri ilə ilk qaz Türkiyə bazarına 2007-ci ildə daxil olub. TANAP vasitəsilə Türkiyəyə kommersiya qazının nəqlinə isə 2018-ci il iyunun 30-da başlanılıb.

## Fransanın keçmiş baş nazirinə və onun xanımına hökm oxundu



Paris məhkəməsi Fransanın keçmiş baş naziri Fransua Fiyonu 3 ili şərti olmaqla 5 il müddətinə azadlıqdan məhrum edib. Məlumatı "İzvestiya" yayıb.

Fransa hökumətinin keçmiş başçısı həyat yoldaşı Penelop Fiyonu saxta yolla işə düzəltməklə bağlı cinayət işi üzrə mühakimə olunub. Xanım Fiyon da cinayətdə iştirak etdiyi üçün 3 il müddətinə şərti olaraq azadlıqdan məhrum edilib.

F.Fiyon və onun yaxın ətrafı barədə qalmaqal 2017-ci ilin yazında prezident seçkisi kampaniyası zamanı gündəmə gəlib. Penelop Fiyon 8 il ərzində qanunsuz yolla deputat köməkçisi maaşını almaqda təqsirli bilinib. Qeyd edək ki, F.Fiyon 2007-ci il mayın 17-dən 2012-ci il mayın 10-dək, Nikolya Sarkozinin prezidentliyi dövründə baş nazir olub.

# Azərbaycan regional kosmik sənaye mərkəzinə çevrilir

*Prezident İlham Əliyev: "Bundan sonra da Azərbaycan yalnız uğurlar, qələbələr yolu ilə gedəcək"*




Son illər düşünülmüş, məqsədyönlü siyasətin nəticəsi olaraq ölkəmiz qlobal maliyyə-iqtisadi böhrandan uğurla çıxan, sosial-iqtisadi sahədə geniş inkişaf edən azad və demokratik dövlət kimi beynəlxalq aləmdə mövqelərini dahada möhkəmləndirib. Tam şəkildə milli maraqlara hesablanan müstəqil siyasət həyata keçirməklə Azərbaycan bu gün beynəlxalq aləmdə ictimai - siyasi sabitliyin bərqərar olduğu, əmin-amanlığın, sülhün və təhlükəsizliyin təmin olunduğu dövlət kimi tanınır və qəbul edilir. Artıq Azərbaycan dünyada yalnız nefti və qazı ilə deyil, həm də turizmi, pambığı, baraması, yüksək bilik və bacarığa malik insan kapitalı ilə də tanınır. Son illər informasiya-kommunikasiya texnologiyaları sahəsində əldə olunan uğurlar qeyri-neft sektorunda yeni uğurların siyahısının genişlənməsinə imkanlar yaradıb. Fakt budur ki, bu gün ölkəmizdə İKT sektoru sürətlə inkişaf edir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani təsdiqidir.

### İKT-nin inkişafı Ulu Öndər Heydər liyevin adı ilə bağlıdır

Təbii ki, informasiya-kommunikasiya texnologiyaları hər bir ölkənin sosial-iqtisadi həyatında mühüm rola malikdir. Bunu nəzərə alan Ulu Öndərimiz Heydər Əliyev 2003-cü il 17 fevral tarixində "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)"nın təsdiq edilməsi haqqında Sərəncam imzaladı. "İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya" rabitə və informasiya texnologiyaları sahəsində kompleks tədbirlərin həyata keçirilməsində, bu sahənin qanunvericilik bazasının gücləndirilməsində əhəmiyyətli rol oynadı. Bu baxımdan demək olar ki, bu gün informasiya-kommunikasiya texnologiyaları sahəsində əldə olunan nailiyyətlər Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. 2003-cü il prezident seçkilərində xalqın mütləq dəstəyini qazanaraq Azərbaycan Prezidenti seçilən Ulu Öndər Heydər Əliyevin ən layiqli siyasi varisi Cənab İlham Əliyev ölkəmizin bütün sahələrinə olduğu kimi informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafına da xüsusi önəm verdi və bu sahənin inkişafı üçün dövlət proqramları, fərman və sərəncamlar imzaladı. Prezident İlham Əliyevin 2005-ci il 22 oktyabrında imzaladığı "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" fərmanı rabitə və informasiya texnologiyalarının geniş tətbiqinə yeni imkanlar açdı. Dövlət Proqramı ölkəmizin hər bir yerində rabitə və informasiya texnologiyalarının geniş yayılmasını təmin etmiş oldu. Görülən işlərin məntiqi olaraq artıq ölkəmizdə elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılıb. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" və 2010-cu ildə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında imzalanan sərəncamlar ölkəmizdə yüksək texnologiyaların tətbiqinə və kosmik sənayenin yaradılmasına göstərilən böyük diqqətin nümunəsidir.

### Azərbaycanın elmi-texniki və iqtisadi qüdrətinin təntənəsi

Qərbin, ABŞ-ın və Azərbaycanın tanınmış mütəxəssislərinin birgə əməkdaşlığı ilə 2013-cü il də orbitə çıxarılan "Azərspase-1" telekommunikasiya peyki ölkəmizin dünyada mövqelərinin daha da möhkəmlənməsinə imkanlar yaratdı. Həm də, diqqət çəkən və qürur doğuracaq məqam ondan ibarət idi ki, peyk üç rəngli Azərbaycan bayrağı ilə kosmosa gönərilmişdir. Bu, Azərbaycanın elmi-texniki və iqtisadi qüdrətinin təntənəsi idi. Azərbaycanın ilk telekommunikasiya peyki informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayenin inkişaf etdirilməsi ilə yanaşı, böyük həcmdə xarici valyutanın təmin olunmasında da mühüm rola malikdir. Azərbaycan Prezidenti İlham Əliyev orbitə buraxılan Azərbaycan peyklərinin iqtisadi səmərəsi ilə bağlı demişdir: "Gələcəkdə bu sahənin hər bir ölkə üçün nə qədər vacib olduğunu, əminəm ki, hər kəs görəcəkdir. Hər bir ölkənin uğurlu, dayanıqlı inkişafı üçün informasiya-kommunikasiya texnologiyaları sahəsi həlledici rol oynayacaqdır. Mən buna əminəm. Mən çox şadam ki, biz bu istiqamətdə bütün işləri planlı, məqsədyönlü şəkildə aparırıq. Bütün addımları atırıq ki, ölkəmiz daha da güclənsin, Azərbaycan daha da müasir dövlətə çevrilsin". 2014-cü ildən "Azərspace-1" peyki vasitəsilə Azərbaycanın bütün televiziya və radio kanalları keyfiyyətli yayıma başlayıb. Hazırda "Azərspace-1" peyki vasitəsilə Azərbaycan, türk, ingilis, gürcü, fars, əfqan və digər dillərdə 120-dən artıq televiziya kanalı yayımlanır. "Azərspace -1" peykin orbitə çıxarılmasının ardınca 2018-ci il sentyabrın 26-da Fransanın Qvianasında yerləşən Kuru kosmodromundan Azərbaycanın "Azerspace-2" peyki orbitə buraxıldı. Prezident İlham Əliyev "Azərspace 2" peykinin orbitə buraxılması münasibətilə xalqa təbrikində demişdir: "Azərbaycan qısa müddət ərzində dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir. Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir. Bizim yolumuz inkişaf yoludur, tərəqqi yoludur və bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir. "Azerspace 2" telekommunikasiya peykinin orbitə çıxarılması bizim növbəti tarixi qələbəmizdir. Bundan sonra da Azərbaycan yalnız uğurlar, qələbələr yolu ilə gedəcək".

### İnformasiya-kommunikasiya texnologiyaları ölkəmizin davamlı inkişafına mühüm tövfələr verir

Azərbaycanın orbitdə özünün telekommunikasiya peyki olan azsaylı ölkələrdən olması onu deməyə əsas verir ki, ölkəmiz yaxın gələcəkdə regional kosmik sənaye mərkəzinə çevriləcək. Yerli və xarici mütəxəssislər o fikirdədirlər ki, 2023-cü ildə kosmik sənayenin inkişafı üçün çox gözəl imkanları olan Azərbaycanda İKT sektorundan əldə olunan gəlirlər neft gəlirlərini üstələyəcək. Bu istiqamətdə Azərbaycanın dünya ölkələri ilə əməkdaşlığı artır və daha da dərinləşir. Bütün bunlar Azərbaycanda uğurla həyata keçirilən dövlət siyasətinin göstəricisidir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi "Biz gələcəyə bu cür baxırıq: müasirlik, dinamik inkişaf, texnologiyaların tətbiqi. Bunlar olmasa biz istədiyimiz qədər inkişaf edə bilmərik. Biz isə istəyirik ki, inkişaf etmiş ölkələrin sırasına daxil olaq və imkanlar da var... Əsas məsələ ondan ibarətdir ki, bütün bu strategiyamızı düzgün planlaşdıraq və addımlarımızı düzgün ataq ki, Azərbaycan bu sahədə də birincilər sırasında olsun". "Azərspace-2" peykin orbitə çıxarılması ölkəmizin iqtisadi gücünə güc qatacaq. Çünki, "Azerspace-2" peyki Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələrini əhatə edəcək və Azərbaycana 400 milyon dollar gəlir gətirəcək. Nəzərə almaq lazımdır ki, 2013-cü il fevralın 8-də orbitə çıxarılan "Azərspace-1" telekomunikasiya peyki 15 illik istisamar müddəti ərzində ölkəmizin iqtisadiyyatına 220 milyon ABŞ dolları gəlir gətirəcək. 2014-cü il iyunun 30-da orbitə buraxılan "Azersky" müşahidə peyki isə, ümumilikdə 200 milyon avro gəlir gətirəcəyi prqnozlaşdırılır. Bir sözlə, kosmik sənayenin inkişafı Azərbaycanın iqtisadi, siyasi gücünü artırmaqla yanaşı dünyada nufuzunun daha da artmasına təkan olacaq. Bu isə, aprılan siyasətin düzgün və əsaslı olduğunu, Azərbaycan xalqına və dövlətinə hələ çox uğurlar gətirəcəyindən xəbər verir.

***İ.ƏLİYEV***

***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi Azərbaycan Milli Mətbuatının 145 illiyinə həsr olunmuş fərdi jurnalist yazıları müsabiqəsinə təqdim etmək üçün***

# Avropa məzarlıqlarına yer qıtlığı: İkinci dalğa sarsıdıcıdır!

*COVID-19 təhlükəsi qalmaqdadır...*

***Artıq dünyada koronavirusa yoluxanların ümumi sayı 10 milyon 244 mini keçib. SİA xəbər verir ki, euronews-ə görə, bu barədə Con Hopkins universiteti qənaətə gəlib. Belə ki, Aİ ölkələri arasında ən baha ödəyici İtaliyadır, orada ölənlərin sayı 35 mindir.***




Ümumiyyətlə, istər Avropada, istərsə də digər qütblərdə vəziyyət get-gedə daha da ağırsalmaq üzrədir. Bu barədə gündəlik informasiyalar, məlumatlar və izlədiyimiz süjetlərdən də görür, nəticələr çıxarırıq. Səbəb isə birdir: məsuliyyətsizlik, inamsızlıq və bu kimi digər hallar. Əslində isə, hər şey tam əksinə də ola bilərdi...

### İtaliya prezidenti: "Biz nəinki bizləri tərk edənlərin xatirələrini yad etməliyik, həmçinin pandemiyanın bizə vurduğu fəsadlardan dərs çıxarmalıyıq"

Məsələn, Lombard Berqamosunda epidemiyanın ən qızğın dövründə hətta məzarlıqlarda belə, yerlər çatışmayıb. Həmin məzarlığı ölkə prezidenti Serjio Mattarella da ziyarət edib.

O, koronavirusdan ölənlərin xatirəsinə həsr olunmuş tədbirdə deyib: "Biz nəinki bizləri tərk edənlərin xatirələrini yad etməliyik, həmçinin pandemiyanın bizə vurduğu fəsadlardan dərs çıxarmalıyıq, çünki sistem, tələb olunan qərarları hər dəfə icra etmək gücündə olmayıb".

Berqamo tibb işçiləri daha 13 min yoluxma halını müəyyən ediblər və yoluxanların hər dördüncüsü həyatını itirib.

### Britaniya Leysterində vəziyyət nəzarətdən çıxır

Mütəxəssislər də bildirirlər ki, pandemiya ilə heç də hər şey başa çatmayıb: demək olar ki, hər gün on minlərlə yoluxanlar müəyyən olunur, bir sıra ölkələrdə hökumətlər artıq ikinci dəfə təcridolunma qaydalarını və məhdudiyyətləri tətbiq edirlər. Söhbət xüsusilə Britaniya Leysterindən gedir. Oradakı vəziyyət elə kəskinləşib ki, hətta ölkənin daxili işlər naziri Pritti Patel bir daha Birləşmiş Krallıq sakinlərini tələb edilən sanitar məhdudiyyətlərə riayət etməyə çağırıb: "Bizim üçün ən qorxulu hal budur ki, epidemiyanın ikinci dalğası baş verə və biz də dövlətin ərazisində yenidən ciddi karantin rejimi tətbiq edə bilərik".

### "Prezident Bolsonarunun COVID-19-u "yüngül qrip" adlandırdığı virus bu Cənubi Amerika ölkəsinin sakinlərinin 57 mindən artıq insanının həyatının itirllməsinə səbəb olub"

Yeri gəlmişkən, pandemiya başlayan andan ona qarşı "partizan müharibəsi" elan edən Braziliyanın prezidenti Bolsonarunun son anda xalqına nə cavab verəcəyi də çox maraqlıdır. Belə ki, aparılan araşdırmalar və statistika da göstərir ki, Braziliyada isə xəstələnənlərin sayı bir həftədə 2 milyon insana çata bilər, çünki orada gündəlik olaraq on minlərlə koronavirus daşıyıcıları aşkarlanır.

Eyni zamanda, "Prezident Bolsonarunun COVID-19-u "yüngül qrip" adlandırdığı virus bu Cənubi Amerika ölkəsinin sakinlərinin 57 mindən artıq insanının həyatının itirilməsinə səbəb olub", deyə sayt yzır. Göründüyü kimi, vəziyyətin bu həddə çatmaması üçün həqiqətən də məsuliyyətli olmaq vacibliyi bir daha özünü təsdiq edir. Hər halda, Avropada və Cənubi Amerika ölkələrində baş verən hadisələr də belə nəticəyə gəlməyə kifayət qədər zəmin yaradır...

***Rövşən RƏSULOV***

# Qənimət Zahidin “Bizim işimiz hökuməti şərləməkdir” etirafına müxalifətdən cavab

***“M**illi Şura”nın növbəti “zoom” toplantısının sözün əsl mənasında qeybət və qarşılıqlı ələsalma mərkəzi kimi tanınması prosesi bu dəfə də öz təsdiqini tapmış oldu. Belə ki, bu qurumun koordinasiya mərkəzinin riyakarlıq və şəratmaq “orqanı” olması da kimsəyə sirr deyil. Xüsusilə, bir-birlərini elə salan fikirləri ilə də yadda qalan qurum təmsilçilərinin bu qədər rəzil vəziyyətə düşmələrinin açıq-aşkar göstəricisi də deyilənləri əks etdirməkdədir.*




### Onlar özləri ilə yanaşı, xalqı da aldatdıqlarını, ələ saldıqlarını sübuta yetirirlər

Hətta toplantılarının məğzini, mövzusunu belə bilməyən “Milli Şura”nın koordinasiya mərkəzinin təmsilçiləri bir sıra etiraflarda da bulunmaqdadırlar. Məsələn, koordinasiya şurasının üzvü Vahid Məhərrəmlinin “Bekarçılıqdı, tema da yoxdu, gəlin biz hökumətdən karantinə görə bu dəfə 500 manat tələb edək, nəyə görə tələb edək, bilirik onsuz verməyəcəklər, amma biz bunu görüntü üçün də olsa ona görə deməliyik ki, xalq da görməlidir ki, biz bu xalqın qayğısını çəkirik, qeydinə qalırıq” ifadəsi artıq onların gerçək mahiyyətlərini də nümayiş etdirir. Onlar özləri ilə yanaşı, xalqı da aldatdıqlarını, ələ saldıqlarını sübuta yetirirlər.

Gültəkin Hacıbəylinin isə “Vidadi keçəl kişi də olsa simpatiçnidi” ifadəsi onun həqiqətən də, daxilindəki hansı “hisslərə” sahib olduğunu göstərir.

Maraqlı məqamlardan biri də budur ki, bu gün “Milli Şura” ittiham olunarkən, AXCP tərəfdarları deyirlər ki, “Milli Şura”nın bizə nə aidiyyatı var, özləri bilərlər. Amma fakt budur ki, “Milli Şura”nın dolayısı sədri məhz AXCP sədri Əli Kərimli, onun müavinləri isə Vahid Məhərrəmli, Qənimət Zahid, Rəhim Hacıyevdir...

Yeri gəlmişkən, Q.Zahidin “zoom” iclasda istər zarafat, istərsə də ciddi şəkildə işilərinin hakimiyyəti şərləməkdən ibarət olmasını deməsi elə müxalifət düşərgəsində də ciddi etiraza səbəb olub.

### “Azadlıq” partiyasının sədri Əhməd Oruc: “Guya ki, Qənimət bəy belə bir ironik vəziyyətdə hazırcavablıqmı edib, kreativlikmi göstərib..?”

“Azadlıq” partiyasının sədri Əhməd Oruc bununla bağlı SİA-ya açıqlamasında bildirib ki, məhz “Milli Şura”da baş verən bu kimi məsələlər adıçəkilən qurumun hansı vəziyyətə gəlib-çıxmasının göstəricisidir. “Zamanında sübuta yetirildi ki, bu Rusiyanın proyektidir. Əgər nəzərə alarsaq ki, orada təmsil olunanlar kimlərdir, bu zaman həmin qurumun ciddiyyətə alınması mümkünsüzadür”, deyən Ə.Oruca görə, bu gün “Milli Şura”nın “fəxri sədrinin” Moskvada olması, həqiqi sədrinin ABŞ-da olması, real sədrinin isə Bakıda olması kimi məsələlər onların ciddiyə alınmalarına imkan vermir: “Guya Qənimət bəy belə bir ironik vəziyyətdə hazırcavablıqmı edib, kreativlikmi göstərib, amma bu uğursuz alınıb”.

“Azadlıq” partiyasının sədrinin sözlərinə görə, hakimiyyətin çoxpartiyalılıq sisteminə yenidən baxacağı halda, müzakirələrin davam etdiriləcəyi halında bu cür qeyri-ciddi, ifrat radikal, milli maraqlara uyğun olmayan siyasi təşkilatlar ya fəaliyyətlərini dayandıracaqlar, ya da fəaliyyətlərinə redaktə etməli olacaqlar.

### ANAP sədri Abutalıb Səmədov: “Onlar yalnız hakimiyyəti deyil, xalqı da şərləyirlər”

Azərbaycan Naminə Alyans Partiyasının (ANAP) sədri Abutalıb Səmədov isə qeyd edib ki, radikal düşərgə təmsilçilərinin fəaliyyətləri 27 ildir ki, məhz bundan ibarətdir: “Onların son zoom” toplantılarının nədən ibarət olduğu da bunu göstərir. Həqiqətdir ki, belə vəziyyət neçə ildir bu cür davam edir. Onların bəyanatları xalqda narazılıq və hiddət yaradır. Yəni onlar yalnız hakimiyyəti deyil, xalqı da şərləyirlər və həqiqətən də xalqa pislik arzulayandırlar. Bu insanlara nəinki hakimyyəti, ümumiyyətlə heç nəyi etibar etmək olmaz. Düşünürəm ki, əgər Q.Zahid və digərləri artıq nə danışdıqlarının fərqinə varmırlarsa, demək ki, onlar daha betər virusa yoluxublar. Hətta deyərdim ki, koronavirus ən böyük zərbəni məhz onlara vurdu”.

***Rövşən RƏSULOV***

## “Ağaları “hə” desə, müxalifət siyasi fəaliyyətində korrektə edər”

**A**zərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev 26 iyun Ordu Günü münasibəti ilə hərbmilərlə görüşündə çıxışında Azərbaycan dövlətinin və Azərbaycan ordusunun gücündən danışdı və işğalçı Ermənistanın gücsüzlüyünü və perspektivsizliyini də konkret faktlarla göstərdi. Prezident müstəqilliyin ilk illərində Azərbaycanın dövlətçiliyini təhlükə altında qoyan AXC - Müsavat cütlüyünü kəskin tənqid etdi. Sual yaranır Cənab Prezidentin bu əsaslı mövqeyindən indiki müxalifət partiya sədrləri nə dərəcə də nəticə çıxara bilərlər? “Azadlıq Hərəkatçıları” Birliyinin sədri Təhmasib Novruzov “Səs” qəzetinə açıqlamasında bildirdi ki, normalda nəticə çıxarmalıdırlar: “Hər bir cəmiyyətdə dövlət başçısının hər bir fikri, bəyanatı rəsmi mövqe kimi qarşılanır və həmin fikirlərin səslənmə səbəbi, bu səbəbin cəmiyyətə münasibətdə fəlsəfi mahiyyəti öyrənilir, təhlil edilir və nəticə çıxarılır. Çünki dövlət rəhbəri həddən ziyadə gərgin zehni fəaliyyətlə məşğul olmaq məcburiyyətindədir. Bu gərginlik içində Prezident o məsələlərə münasibət bildirməli olur ki, həmin məsələ ümumən cəmiyyətin inkişafı, mövcud olan problemlərin həlli ilə birbaşa bağlı olur”. T.Novruzov bildirdi ki, uzun illərdir ki, həm siyasət adamları, həm ziyalı təbəqəsi, həm də siyasi şərhlər yazan media nümayəndələri tərəfindən bəzi müxalif qüvvələrin, xüsusən AXCP və Müsavat partiyalarının destruktiv, antimilli fəaliyyətlərindən deyilir, yazılır, danışılır: “Nəhayət bu məsələ o dərəcədə narahatlıq doğuran bir problemə çevrilib ki, ölkə başçısı münasibət bildirməli oldu. Düşünürəm ki, həmin siyasət oyunbazları bunun fərqində olmalı, və cənab Prezidentin bu mesajını sağlam düşüncə ilə təhlil etməli və nəticə çıxarmalıdırlar. Ancaq, səmimi deyim ki, mənim buna inamım azdı. Çünki onlar artıq özlərini, əqidələrini, mövqelərini özləri idarə etmək iqtidarında deyillər. Ağaları “hə” deyəcəklərsə, onlar da öz siyasi fəaliyyətlərində korrektə edəcəklər. Müstəqil olmayan insanın müstəqil siyasət yürüdəcəyinə inanmaq, məncə sadəlövhlük olardı. Amma yenə arzu edək ki, nəticə çıxarsınlar. Ən azı onlar da bu ölkənin vətəndaşları, bu cəmiyyətin üzvləridirlər. Az da olsa dövlətin və cəmiyyətin gələcəyini düşünürlərsə, papaqlarını qabaqlarına qoyub düşünmələrinin zamanıdır”.



***Gülyana***

## “Milli Şura”da gizli qarşıdurmalar: nə baş verir?

*Əli Kərimli Cəmil Həsənlidən yaxa qurtarıb, sədr postunu ələ keçirmək iddiasında!*

**M**əlum və səsli-küylü istefaların ardınca “Milli Şura”da daxili, eləcə də barışmaz gərginlik həddi artmaqda davam edir. Əslində, artıq uzun müddətdir ki, aralarında ciddi fikir ayrılıqları yaşanan sədr Cəmil Həsənli ilə AXCP sədri Əli Kərimlinin çox yaxın zamanlarda münasibətlərinə son qoyulacağı barədə söz-söhbətlər də öz qüvvəsində qalmaqdadır. Daha dəqiq desək, “Milli Şura”da “can qoyan” şəxslərin gedişindən sonra bütün günahlar bilavasitə C.Həsənlinin üzərinə atılmaqdadır. Bu məsələdə Ə.Kərimlinin trolları sətiraltı rəyrləri ilə prosesi, yəni C.Həsənlinin sədrlikdən uzaqlaşdırılması planını sürətləndirməkdədirlər. Buna səbəb kimi isə, C.Həsənlinin öz çıxışlarında “Milli Şura”nın, daha dəqiq desək, AXCP-nin siyasi görüşündən kənar kontekstlərdə fikirlər yürütməsi və həmin fikirlərin məhz Ə.Kərimlinin maraqlarına cavab verməməsi göstərilir. Çünki “Milli Şura”nın ilk növbədə xarici dairələrin daha sonra isə, AXCP-nin satelliti, yaxud marioneti olması kimsəyə sirr deyil. O cümlədən, “Milli Şura”nın idarəçilik nüvəsinin bilavasitə Ə.Kərimlinin əlində olması faktı da təəccüblü deyil...

### Bəs Cəmil Həsənli Əli Kərimlinin hansı planlarından məlumatlıdır?

Digər maraqlı məqam hazırda ABŞ-da oturub qurumun “zoom” toplandılarında ictimai rəydə ikrah hissləri yaradan C.Həsənlinin Ə.Kərimlinin planlarından məlumatlı olması məsələsidir. Artıq “Milli Şura”da ikitirəlik yaranıb və bu qurumda iki hissəyə parçalanmış tərəflər Həsənli-Kərimli cəbhələrinə bölünüblər. Quruma yaxınlığı ilə seçilən mənbədən aldığımız xəbərə görə, C.Həsənlinin yanında olanlar əsasən, yaşlı nəslin nümayəndələridirlər və onlar əsasən, C.Həsənlinin mövqeyini müdafiə edirlər.

Ə.Kərimlinin isə yanında olanlar isə, məhz onun mövqeyini müdafiə edənlərdir ki, AXCP sədrinin tapşırığına əsasən, sosial şəbəkələrdə zaman-zaman C.Həsənli qruplaşmasına qarşı müəyyən təzadlı çıxışlar edirlər.

### “Milli Şura” sədrinin “REAL” sədrinə dəstək göstərməsi AXCP sədrini qıcıqlandırıb

Yeri gəlmişkən, daha bir məqamı xatırlatmaq yerinə düşərdi. Bu gün AXCP-”Milli Şura” cütlüyünün müxalifətin digər siyasi partiyalarına qarşı düşmənçilik etməsi məlumdur. Ancaq C.Həsənli zaman-zaman “REAL” və s. partiyalara dəstək göstərməkdən çəkinmir. Məsələn, bir müddət əvvəl “Milli Şura” sədrinin “REAL” partiyasının sədri İlqar Məmmədovu “perspektivli müxalifət lideri” adlandırmasını göstərə bilərik. Halbuki, AXCP sədri hal-hazırda özünə ən böyük manəəni İ.Məmmədovda görməkdədir. Ə.Kərimlinin İ.Məmmədovu hədəfə alması, özünü isə müxalifətin “vahid lideri” kimi təqdim etməsi deyilənləri kifayət qədər təsdiq etmiş olur. Ona görə də, C.Həsənlinin İ.Məmmədov barədə müsbət yönlü fikirlərini açıqlaması Ə.Kərimliyə “soyuq duş” effektini verib. Əbəs deyil ki, “REAL” funksionerləri zaman-zaman C.Həsənli kimi elm adamının Ə.Kərimlinin yanında nüfuzunu itirməsi ətrafında fikirlər səsləndirməklə, nüfuzunu itirdiyini bəyan edirlər. Bu isə əbəs deyil - qarşılıqlı jestlərdir. Amma...

### Effektsizlik reallığı...

Amma fakt budur ki, C.Həsənli hələ “Milli Şura”nın sədridir və Ə.Kərimlinin təsiri altında olmasına rəğmən, müəyyən mənada qərarlarını verməkdədir. AXCP sədri Ə.Kəriminin icazəsiz küçə yürüşlərindək fiaskosunun ardından məlum olmuşdu ki, Ə.Kərimli və C.Həsənli fəqli mövqelərdən çıxış ediblərmiş. Kərimli icazəsiz yürüşlərə start verilməsinin, Həsənli isə bu yürüşlərin heç bir effekt verməyəcəyini deyibmiş. Həqiqətən də belə oldu və radikal düşərgədəki sonrakı proseslər də bunu ehtiva etdi. Görünür, həmin vaxtlarda küçə yürüşlərinin effektsizliyi ilə bağlı İ.Məmmədovla eyni düşüncəyə malik olan C.Həsənlinin bu addımı da qarşıdurmanı kəskin həddə qədər artırmışdı. Əgər bu gün həmin qarşıdurmaların köklü səbəblərini axtararsaq, bu reallıq da özünü təsdiq etmiş olur.

### Çoxluq Cəmil Həsənlini çıxdaş edəcək

“Milli Şura”ya yaxın mənbə həmçinin qeyd edib ki, yaxın günlərdə “Milli Şura”nın koordinasiya şurasının növbəti “zoom” iclası keçiriləcək və orada C.Həsənlinin “Milli Şura”ya sədrliyi məsələsinə yenidən baxılacaq. Çox ehtimal ki, “şuranın” əsas çoxluğunun AXCP sədrinə dəstək verdiyini nəzərə alarsaq, Həsənli öz postu ilə vidalaşmalı olacaq. Necə deyərlər, köhnə sovet dönəmlərindəki kimi, C.Həsənli “təmtəraqlı” qaydada sədrlik kreslosundan uzaqlaşdırılacaq. Səbəb kimi isə, onun ABŞ-da elmi işlərlə məşğul olması, siyasətə vaxtının qalmaması bəhanələri göstəriləcək...

“Milli Şura”ya rəhbər olaraq isə, AXCP-nin sədri Ə.Kərimli seçiləcək ki, bu da qurumdaxili növbəti intriqaların yaranması ilə nəticəsini tapacaq. Hər halda, “Milli Şura”dakı vəziyyət kritik nöqtəyə qədər inkişaf edib və bu siyasi mövsümdə həmin faktor özünü artıqlaması ilə sübut etməkdədir.

***Rövşən RƏSULOV***

# Ermənilərin özlərindən "tarixi şəxsiyyətləri" icad etmək bacarığı

### *Yaxud, görkəmli şəxsiyyətlərin "erməniləşdirilməsi"*

***Ermənilər tarixi şəxsiyyələr də uydurmağı bacarırlar. Bakurun beşinci əsrdə Gürcüstanın çarı olduğunu heç bir tarix yada salmır. Bir çar Bakur 342-364-cü illərdə, Varaz Bakar isə 379-393-cü illərdə olmuşdur. Ancaq biz Bakurun kim olduğunu, 5-ci əsrdə Mesrop tərəfindən necə dəyişdirildiyini və maarifləndirildiyini bilmirik. Bu isə ermənilərin özlərindən "tarixi şəxsiyyətləri" icad etmək bacarığının olduğunu bir daha sübut edir.***

Şaxatunyanların, ter-abramyanların, naxapetyanların, eritsovların, artsrunların, vermişevlərin, babaxanyanların və digər alim, yazıçı eləcə də jurnalistlər ermənilərə son dərəcə nifrət etməklə gürcülərin tarixini saxtalaşdırır və nəticə etibarilə onlara elmdən kənar yollarla müdaxilə edirlər. Onların işlərində, o cümlədən məqalələrində və məktublarında ermənilərin dəsti-xəttinə uyğun olan gürcüləri həyasızlıqla təhqir etdikləri öz əksini tapır. Bu cür gürcü əleyhinə olan nəşrlər bu gündə satılmağa davam edir. Sözügedən nəşrlərin satışını, erməni qriqoryan kilsəsi olan Eçmiədzin, Kanadanın erməni kilsəsi, erməni diasporu eləcə də erməni xeyriyyəçiləri və biznesmenləri maliyyələşdirirlər.

Təəssüf ki, ermənilərin bəzi şovinist dairələrində mənşəyinə görə bütün gürcüləri erməni elan etmələrinə dair xoşagəlməz bir tendensiya nəzərə çarpır. Buna misal olaraq göstərmək olar ki, 1937-ci ildə Dandurovun kitabında qeyd olunurdu ki, Şota Rustaveli, eləcə də böyük gürcü tarixçisi İvan Cavaxişvilinin əcdadı erməni olmuşdur. Erimyan Mxarqrdzelinin fikrinə görə, Tmoqvidən olanlar erməni olmuşlar. Müasir erməni ədəbiyyatlarında belə bir təsəvvür yayılmışdı ki, Gürcüstanda yaşayan ermənilər Gürcüstanın tarixində gürcülərdən daha çox rol oynayırlar.

"Zaman keçir, əsrlər bir-birinin ardınca gedir, həyat inkişaf edir, ancaq ermənilər dəyişməz olaraq qalırlar. Onlar suyu bulandırırlar, sadalanması mümkün olmayan çox şeyin haqqında mübahisə edirlər. Erməni "alimi" Suren Ayvazyanın fikrincə, Şota Rustaveli, Georgi Saakadze, İosif Stalin, Napoleon və bir çox başqaları erməni olmuşlar. Ermənilər gürcüləri günahlandırmağı sevirlər, ona görə də hər şeyi uydururlar. Onlar gürcü soyadlarının sonlarının əvəzlənməsinin səbəbini özlərinə məxsus şəkildə başa düşürlər".

Gürcüstanda Şərq və İncil şəxs adlarının geniş yayılması ənənələrindən əmələ gələn gürcü-erməni oxşar adlarından və paralel formalarından istifadə edərək (məsələn Aslanaşvili - Aslanyan, Şaxqulaşvili - Şaxqulyan, İsakadze - İsaakyan, Saakadze-Saakaşvili-Saakyan, Tumanaşvili - Tumanyan, həmçinin İncil - xristian adları Abramişvili - Abramyan, İakobaşvili - Akopyan, Adariaşvili - Adaryan, Petriaşvili - Petrosyan, bu adların milli mənsubiyyətini əslində müəyyən etmək qeyri-mümkündür, heç bir əsas olmadan S.Mamulov gürcü şəxs adlarının erməni mənşəli olduğunu göstərir.

Halbuki erməni mənbələri də bu bölgələrin köklü əhalisinin gürcülər olduğunu təsdiq edir.

Gürcü mənbələri sübut edir ki, Cavaxeti Sund eristavlığının tərkibində olmuş və qədim dövrlərdən Kartli çarına tabe olmuşdur. İlk gürcü kilsələri burada IV-VI əsrlərdə tikilmiş, Kartli çarı Vaxtanq Qorqasal Cavaxetidə yepiskopluğun əsasını qoymuşdur.

S.Mamulovun ümumdünya tarixini erməniləşdirən və saxtalaşdıran bu cür sərsəm əsərinin ikincisi biləvasitə Gürcüstanın tarixinin saxtalaşdırılmasına həsr olunmuşdur.

S.Mamulov ermənilərin bütün dünyada üstün xalq olduğunu "sübut etdikdən sonra" onun Qafqazda xüsusi tarixi-mədəni üstünlüyə malik olduğunu 1995 və 2002-ci illərdə Moskvada kütləvi tirajla çap edildiyi "Ermənilər Gürcüstanda" "əsərində" təqdim etmişdir.

S.Mamulov ermənilərin saxtakarlığını ifşa edən görkəmli gürcü ziyalısı knyaz İlya Çavçavadzenin anasının Mariam Beburaşvilinin erməni Baburyan olduğunu göstərir.

Görkəmli gürcü tədqiqatçısı Q.Maysuradze "Tarixi həqiqətin təhrifinə yeni cəhdlər" adlı məqaləsində yazır: "Kitabda gürcü tarixi şəxsiyyətlərinin və xadimlərinin heç bir əsas olmadan erməniləşdirilməsinə çox təsadüf olunur. S.Mamulov Şərqi Gürcüstanı "erməni ruhu" və yaradıcılığının bir sahəsinin ifadəsi hesab edir. O, orta əsrlər Gürcüstan tarixini Ermənistan tarixinin bir hissəsi kimi təqdim edir. Guya erməni xalqının çoxtərəfli istedadı, erməni ruhu, onun nəhəng yaradıcı gücü məhz Gürcüstanda təzahür etmiş və burada özünün inkişafı üçün ən əlverişli zəminini tapmışdır".

S.S.Mamulov guya XII-XIII əsrlərdə Gürcüstan və Ermənistanın federativ dövlət quruluşunda birləşdiyini iddia edir.

Baqratidlərin gürcü və erməni mənşəyinin ümumi olmasından bəhs edən S.Mamulov xüsusi qeyd edir ki, "bu nüfuzlu Ermənistan aristokratik nəsli" Gürcüstanda da meydana gəlmişdir. Guya onlar əvvəlcə Ermənistanda, sonralar isə Gürcüstanda çarlıq etmişlər. O, yalnız Kartli-Kaxeti çarlığını gürcü çarlığı hesab edir.

S.Mamulov Tiflisin, Telavinin, Axalkələyin, Qorinin, Siqnaxın ermənilər tərəfindən yaradıldığını, bu şəhərlərdə erməni əhalisinin üstünlük təşkil etdiyini göstərir. Halbuki erməni əhalisi rusların köməyilə məhz XIX əsrdə Türkiyədən Gürcüstana köçürüldükdən sonra onlar bəzi şəhərlərdə "üstünlük" təşkil etmişlər.

S.S.Mamulov özünün sərsəm əsərində göstərir ki, "Ermənistanda xammal ehtiyatı, böyük ərazi olmasa da ermənilərdə beyni, ağlı vardır. İntellekt - erməni neftidir. İki ermənin biri tacir, filosof, yarısı xarici işlər naziridir. Erməni dilində Adəm və Nuh danışmışlar. Erməni mətbəxi ən qədimdir. Adəm və Həvva Ermənistanda yaşamışlar". "Faktlar sübut edir ki, erməni memarlığı İtaliyanın, Fransanın, Almaniyanın və İrlandiyanın bir çox şəhərlərinin bir çox qədim tikililərinə təsir etmişdir", "Rusiyada yalnız üç xalqın: rusların, almanların və ermənilərin imperiyaları olmuşdur". "Onlar Rusiyanın mədəniyyətini yaratmışlar".

"Erməni döyüşçüləri Aleksandr Nevskinin bayrağı altında vuruşmuşlar. Ermənilər slavyan tayfalarına qıpçaqlara (poloveçlərə) qarşı döyüşlərdə kömək etmişlər. Onlar 1552-ci ildə Kazanın Qızıl Ordanın hakimiyyətindən azad olunmasına həlledici töhfələr vermişlər"."Bolqarıstan çarı Samuel, Rumıniya dövlətinin banisi Mixay Cəsarətli, Livanın sultanı Taut-Paşa, Misirin sultanı Sələddin, Napoleonun ilk cangüdəni Rustəm, Bizans ordusunun baş komandanı Maris erməni olmuşdur", "Brejnevi erməni xilas etmişdir" və s. xəstə şüurun məhsulu olan bu sözlər güya hamısı ermənilərə xasdır.

Gürcü tədqiqatçısı D.Berdzenişvili göstərir ki, bu şərhsiz iqtibasların heç bir elmi əhəmiyyəti və əsası yoxdur. Məsələ ondadır ki, bu yalnız bir trməni müəllifin fantaziyasının məhsulu deyildir. Bu konkret bir erməni mənbəyində yaranmışdır

***Vahid Ömərov,***
***fəl.ü.f.d.,dos.***

*Görkəmli gürcü tədqiqatçısı Q.Maysuradze "Tarixi həqiqətin təhrifinə yeni cəhdlər" adlı məqaləsində yazır: "Kitabda gürcü tarixi şəxsiyyətlərinin və xadimlərinin heç bir əsas olmadan erməniləşdirilməsinə çox təsadüf olunur. S.Mamulov Şərqi Gürcüstanı "erməni ruhu" və yaradıcılığının bir sahəsinin ifadəsi hesab edir. O, orta əsrlər Gürcüstan tarixini Ermənistan tarixinin bir hissəsi kimi təqdim edir. Guya erməni xalqının çoxtərəfli istedadı, erməni ruhu, onun nəhəng yaradıcı gücü məhz Gürcüstanda təzahür etmiş və burada özünün inkişafı üçün ən əlverişli zəminini tapmışdır". S.S.Mamulov guya XII-XIII əsrlərdə Gürcüstan və Ermənistanın federativ dövlət quruluşunda birləşdiyini iddia edir. Baqratidlərin gürcü və erməni mənşəyinin ümumi olmasından bəhs edən S.Mamulov xüsusi qeyd edir ki, "bu nüfuzlu Ermənistan aristokratik nəsli" Gürcüstanda da meydana gəlmişdir. Guya onlar əvvəlcə Ermənistanda, sonralar isə Gürcüstanda çarlıq etmişlər. O, yalnız Kartli-Kaxeti çarlığını gürcü çarlığı hesab edir*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il
yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

30 iyun

## İbrahim Tatlısesin yeni sevgilisi üzə çıxdı



İbrahim Tatlıses uzun müddətdən sonra axtardığı sevgisini tapa bilib. Ailə həyatında bəxti gətirməyən türkiyəli ulduz nəhayət ki, Bodrumda keçirdiyi yay tətilində sevgilisi ilə kameralar önünə keçib. Hürriyet.com-un məlumatına görə, Tatlısesin yeni sevgilisi Gülçin Karakayadır. Uzun zamandır eşq yaşadıqları deyilən cütlük əyləncəli anlarını bölüşüb. 68 yaşında yeddi övlad, doqquz nəvə sahibi olan Tatlısesin üçüncü dəfə nikah masasına oturub-oturmayacağı maraq mövzusuna çevrilib.

## Müller Bundesliqanın tarixinə düşdü

***"B**avariya"nın hücumçusu Tomas Müller yeni rekorda imza atıb. Qol.az xəbər verir ki, Münhen təmsilçisinin 30 yaşlı futbolçusu bu mövsüm 21 məhsuldar ötürmə edib ki, bu, Bundesliqa tarixində rekorddur. O, buna 26 oyunla nail olub. 15 fərqli oyunda asist edən alman futbolçu, geridə qalan mövsümdə 8 qol da vurub.*

Buna qədər Bundesliqa tarixində asist rekordu Kevin de Brüyneyə məxsus idi. O, buna 2014/15 mövsümündə "Volfsburq"un heyətində imza atmışdı. Hazırda "Mançester Siti"də çıxış edən Belçika yığmasının üzvü həmin mövsüm 20 məhsuldar ötürmə müəllifi olmuşdu.



## Koronavirusa qarşı 3 vacib

***H**azırda evdə koronavirusa qarşı mübarizə tədbirləri insanların ən çox ehtiyac duyduğu məsələdir. XəzərXəbər-in xəbərinə görə, həkim, fitoterapevt Boris Skaçkonun ağciyər xəstəlikləri,virus və öskürəyə qarşı tövsiyə etdiyi sadə metodları araşdırıb.*

## MƏSLƏHƏT



Həkim tənəffüs yolları ilə keçən virus və bakterial xəstəliklərə qarşı bir neçə effektiv metodu tövsiyə edir. Pandemiya dövründə bunlar əvəzsizdir.

1. Çalışın burnunuzdan nəfəs alın. Çünki burunda virusları tutub saxlayan xüsusi sistem, selikli qişa və s. daha mükəmməldir. Ağızdan virus daha tez ağciyərlərə yaylır.

2. Yaşadığınız, yatdığınız otaqda havanın quru olmasının qarşısını alın. Yay aylarında bu quru hava kondinsiner və s.-dən daha çox yaranır. Hər yerə isladılıb sıxılmış mələfə, yaş dəsmal sərin, hava təravətləndirici sprey qabının içinə su alıb, 20 damcı perekis damızdırın və hər 15 dəqiqədən bir ətrafa fısqırdın.

Yatanda çarpayının ayaq ucu tərəfə yerə ləyənlərdə su qoyun.Burdan su havaya buxarlanacaq və otaqdakı havada lazımi rütubət yaranacaq.

3. Yerli immuniteti qaldırmaq üçün əl-ayağı isitmək lazımdır. Gündə 2 dəfə isti dözüləcək qədər suda ayaqlar vanna edilir, şüşə bankaya isti su töküb, ovucların arasında soyuyana kimi saxlamaqla əllər isidilir. Yatanda yun corab geyib yatın. Ətraflar belə qısamüddətli isidiləndə yerli immunitet yüksəlir.

Unutmayın ki, ağciyər alveollarındakı selik, bəlğm 97% sudan ibarətdir. Əgər ağciyərlərdə bol su olsa, həmin bəlğəm virusu, bakteriyanı özünə hopdurub, öskürəklə çıxacaq. Əgər su çatışmasa, selik qatı olub, əksinə alveolları yapışıb qalacaq və onda olan bakteriyalar ağciyər toxumasına yapışacaq, burdan da bakterial infeksiya yayılacaq. Bəlğəm və öskürəkdən qorxmayın, əksinə ağciyərlərə kömək edin.medicina.az

## Hansı tip kişilər koronavirusu daha ağır keçirir?

***"K**lassik tipli "brutal" kişilər koronavirusu daha ağır formada keçirir". "Komsomolskaya pravda"nın məlumatına görə, bununla bağlı Moskva Dövlət Universitetinin Fundamental Tibb fakültəsinin terapiya şöbəsinin müdiri, tibb elmləri doktoru, kardioloq Yana Orlova xəbərdarlıq edib. Onun sözlərinə görə, dünyada bu yöndə bir sıra tədqiqatlar aparılıb, klinik təcrübələr də onları təsdiqləyib.*

"Koronavirusu kişilər qadınlardan, yaşlılar gənclərdən, kök insanlar normal çəkili insanlardan daha ağır keçirir. Həmçinin, keçəlləşən və üzü saqqallı, necə deyərlər, klassik tipli "brutal" kişilər daha ağır xəstələnirlər", - deyə kardioloq əlavə edib.

Yeri gəlmişkən, qeyd edək ki, rusiyalı trixoloq-həkim Olqa Koxas bu yaxınlarda bığ və saqqalın koronovirusdan müdafiə etdiyini demişdi. Onun sözlərinə görə, koronavirus o qədər kiçikdir ki, dəridən nüfuz edə bilir, bu səbəbdən insanın örtülü geyinməsi məsləhətdir. "Saqqal və bığ isə üz tükün. Tüklərin müdafiə funksiyası var. Mən iddia edərdim ki, bığ və saqqal müdafiədir", - deyə O.Koxas vurğulamışdı.

## Marsda qeyri-adi hadisə: Yaşıl işıq nədir?

***A**vropa Kosmos Agentliyinin (ESA) "Trace" qaz peyki Marsın atmosferində zümrüd yaşılı bir parıltının yayıldığını təsbit edib. Space.com-un yazdığına görə, peykin tapıntısını qeydə alan Belçikanın "Liege" universitetinin astronomu Jan-Klod Jerar (Jean-Claude Gerard) bildirib ki, dünyanın qaranlıqda qalan qismində atmosferdə görünən, oksigen atomlarının müəyyən bir işıq dalğası boyu yayılmasından qaynaqlandığı hesab edilən yaşıl işıq Yer kürəsindən başqa yerdə ilk dəfə müşahidə edilir.*

Alim deyib: "Yaşıl işıq yayılması oksigen molekullarının xarakterik xüsusiyyətidir. "Şimal işıqları" adlanan auroralar Günəşdən yayılan elektrik yüklü zərrəciklərinin atmosferin üst seqmentlərindəki molekullarla çarpması nəticəsində meydana gəlir. Hesab edirik ki, bu, Marsdakı işıq planetin atmosferinin 95 faizini əmələ gətirən karbon 4 oksid qazlarının atmosferin üst seqmentlərində parçalanması, karbonmonoksit və oksigenə ayrılması nəticəsində yaranır."



## Ayı ilə boğuşdu, sağ qaldı



***T**ürkiyənin Hakkari şəhərində ayının hücum etdiyi 55 yaşlı kişi beş saatdan sonra xilas edilib. Publika.az Türkiyə mətbuatına istinadla xəbər verir ki, çuğundur toplamaq üçün şəhərin mərkəzindən uzaqlaşan İsmət İldırım adlı şəxs ayı hücumuna məruz qalıb və ağır yaralanıb.*

Onun səsini eşidən şəhər əhalisi əraziyə təcili tibii yardım işçiləri və xilasedicilər çağırıblar. Xilasedicilər İ.Yıldırımı beş saata xilas etməyi bacarıblar. Ayı ilə boğuşan şəxsin ağır yaralandığı bildirilir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**